26 iyun 2020-ci il
№18 (8882)

www.muallim.edu.az
muallim@edu.gov.az

AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

# 26 iyun Azərbaycan Respublikası Silahlı Qüvvələri günüdür



## "Azərbaycan Ordusu dünyanın güclü orduları sırasındadır"

**İlham ƏLİYEV,**
**Ali Baş Komandan**

- Bu gün Azərbaycan ordusu dünyanın güclü orduları sırasındadır. Ordu quruculuğu əsas vəzifəmizdir.
- Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan əsgəri, zabiti, generalı - Azərbaycan Ordusu əsl qəhrəmanlıq, peşəkarlıq, rəşadət göstərmişdir.
- Mən dəfələrlə hərbi hissələrdə vəziyyətlə tanış olarkən qeyd edirdim ki, Azərbaycanda çox yüksək vətənpərvərlik ruhu var. Azərbaycan Ordusunun döyüş qabiliyyəti ən yüksək səviyyədədir və bunu yaxın tarix göstərir.
- Aprel qələbələri, Naxçıvan qələbələri bir daha ordumuzun, xalqımızın vətənpərvərlik ruhunu möhkəmləndirir, bir daha Azərbaycan xalqını əmin edir ki, o, tam arxayın ola bilər, Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir və buna hazırdır.







# Prezident İlham Əliyev Azərbaycan Dövlət Aqrar Universitetinin yeni tədris korpusunun açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 24-də Gəncəyə səfərləri çərçivəsində Azərbaycan Dövlət Aqrar Universitetinin yeni tədris korpusunun açılışında iştirak ediblər.





AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım yeni tədris korpusunda yaradılan şəraitlə tanış olublar.

Diqqətə çatdırılıb ki, ölkədə ərzaq probleminin həllində önəmli rola malik olan kənd təsərrüfatının elmi əsaslarla inkişafında həmişə mühüm rolu olmuş bu ali təhsil müəssisəsi son illər tamamilə yenidən qurulur. Azərbaycan Prezidentinin 2018-ci il 22 yanvar tarixli Sərəncamına əsasən, dövlət əsaslı vəsait qoyuluşu - investisiya xərcləri hesabına tikilmiş yeni tədris korpusunda müasir təfəkkürlü kadrların hazırlanması, eləcə də elmi tədqiqatların səmərəli aparılması üçün hər cür şərait yaradılıb. Professor-müəllim heyətinin və tələbələrin ixtiyarına ən yeni əyani vasitələr və avadanlıqla təchiz olunmuş auditoriyalar və laboratoriyalar verilib. Binada bütün zəruri infrastruktur qurulub. İnzibati xidmət və digər yardımçı otaqlar yaradılıb. Yeni tədris korpusunda ümumilikdə 3 min tələbə iki növbədə təhsil alacaq.

Bildirilib ki, yeni tədris korpusunda aqronomluq, zootexniklik istiqaməti, ictimai elmlər və multikulturalizm kafedraları, interaktiv təlim-tədris otaqları fəaliyyət göstərəcək.

Bu korpusun istifadəyə verilməsi bir də ona görə əlamətdardır ki, burada əlavə 93 nəfər üçün yeni iş yeri açılacaq.

## Gəncə şəhərində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Gəncə şəhərində 760 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 2,0 (iki) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 24 iyun 2020-ci il*

## Mingəçevir şəhərində 12 nömrəli tam orta məktəb binasının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Mingəçevir şəhərində 450 şagird yerlik 12 nömrəli tam orta məktəb binasının əsaslı təmiri işlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məktəb binasının əsaslı təmiri işlərinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 25 iyun 2020-ci il*

## Samux rayonunun Çobanabdallı kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Samux rayonunun Çobanabdallı kəndində 624 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 2,0 (iki) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 25 iyun 2020-ci il*

## Dövlət başçısı Təhsil Nazirliyinin əməkdaşlarını təltif edib

İyunun 23-də ölkə Prezidenti cənab İlham Əliyev “Dövlət qulluqçularının təltif edilməsi haqqında” Sərəncam imzalayıb.

Dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə təltif olunanlar arasında Təhsil Nazirliyinin 3 əməkdaşı da var.

Sərəncama əsasən, Təhsil Nazirliyinin Aparat rəhbəri Muxtar Məmmədov, Dəftərxana sektorunun baş məsləhətçisi Şahrun Qulu Zadə “Dövlət qulluğunda fərqlənməyə görə”, nazirliyin İctimaiyyətlə əlaqələr sektorunun baş məsləhətçisi Billurə Hacızadə isə “Tərəqqi” medalı ilə təltif olunublar.

Təltifə layiq görülən əməkdaşların hər birini təbrik edir, onlara uğurlar arzulayırıq.

## Müəllimlərin peşəkar inkişafı

### İctimai Şura üzvləri mövzunu onlayn müzakirə ediblər



Təhsil Nazirliyi yanında İctimai Şuranın müəllimlərin peşəkar inkişafı mövzusunda onlayn iclası keçirilib.

Şuranın məsul katibi İlqar Orucov təhsil işçilərinin peşəkar inkişafı mövzusunda müzakirənin aktuallığına toxunaraq təhsil sahəsində kadr hazırlığı istiqamətində görülən işlərdən danışıb.

Onlayn müzakirədə iştirak edən Təhsil nazirinin müşaviri Elnur Məmmədov müəllimlərin peşəkar inkişafı sahəsində mövcud siyasət barədə məlumat verərək bildirib ki, bu istiqamətdə görülən işlər “Təhsil haqqında” Qanun, “Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası”, “Məktəbəqədər, ümumi, ilk peşə-ixtisas və məktəbdənkənar təhsil müəssisələrinin rəhbər və pedaqoji kadrları üçün ixtisasartırma təhsilinin kurikulum çərçivəsi”, “İxtisasartırma təhsili proqramlarının qiymətləndirilməsi və tətbiqinə dair təlimat” əsasında həyata keçirilir. İxtisasartırma təhsilinin təşkili Təhsil İnstitutunun nəzdində fəaliyyət göstərən Təhsil İşçilərinin Peşəkar İnkişafı Mərkəzi tərəfindən aparılır.

Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdiri Vəfa Yaqublu ümumi təhsil müəssisələrində çalışan müəllimlərin peşəkarlıq səviyyəsi (fənn biliyi, ümumpedaqoji bacarıqlar və metodik yanaşmalar) barədə məlumat verib. Bildirib ki, diaqnostik qiymətləndirmədən sonrakı dövrdə müəllimlərin fənn biliklərinin dərinləşdirilməsinə və genişləndirilməsinə daha çox önəm verilib. 8 fənn üzrə 120 akademik saatlıq ixtisasartırma proqramları ixtisasından aşağı bal toplamış müəllimləri mütəmadi olaraq əhatə edib, son iki ildə ümumpedaqoji bacarıq və metodik yanaşmalar da diqqətdə saxlanılaraq yeni məzmunlu və formalı proqramlar hazırlanıb.

Müəllimlərin peşəkar inkişaf imkanları (dövlət tərəfindən təmin olunan təlimlər, ödənişli təlimlər, beynəlxalq təlim səfərləri, öyrədici resurslar və s.) haqqında məlumat verən Təhsil İnstitutunun Təhsil İşçilərinin Peşəkar İnkişafı Mərkəzinin (TİPİM) direktoru Nəzakət Mehdiyeva qeyd edib ki, mərkəz tərəfindən təşkil edilən “Refleksiv müəllim” seminarları müəllimin özünü və həmkarlarını qiymətləndirmə bacarığının inkişafında müsbət rol oynayır. Mərkəzin bu yöndə fəaliyyətində son iki il ərzində beynəlxalq təlim səfərlərinə əhəmiyyət verilib. TİPİM-in onlayn resurslarında xeyli sayda öyrədici materiallar yerləşdirilib ki, təhsil işçiləri istədikləri vaxt həmin məlumatlardan istifadə edə bilərlər. Bunlardan 65-i beynəlxalq metodistlərin hazırladıqları və Azərbaycan dilinə tərcümə edilmiş hazır dərs planlarıdır. Həmçinin 69 ədəd orijinal video-çarx və animasiya filmi də hazırlanaraq təhsil işçilərinin istifadəsinə verilib.

Şura üzvlərindən Asif Cahangirov, Ülviyyə Mikayılova, Elmina Kazımzadə, Mirzə Cəfərzadə də çıxış edərək mövzu ilə bağlı fikirlərini bildiriblər. Şura üzvləri təhsil işçilərinin peşəkar inkişaf standartlarının təsdiqi, ixtisasartırma kurslarının təşkilində sistemliyin artırılması, pedaqoji kadrların peşəkar inkişafının nəticəyönümlüyünü, həm dövlət hesabına, həm də ödənişli əsaslarla təlim verən mərkəzlər tərəfindən təhsil işçilərinin peşəkarlığının artırılması məqsədilə standartların və təlim paketlərinin hazırlanması, təlim verən özəl qurumlara dair məzmun tələblərinin təkmilləşdirilməsi, təhsil işçilərinin təlimlərə cəlb edilməsində məcburilikdən daha çox motivasiya və həvəsləndirmə mexanizmlərinin formalaşdırılması barədə təkliflər irəli sürüblər. Eyni zamanda müəllimlərin əməyinin qiymətləndirilməsinin onların bilik və bacarıqlarını əks etdirən göstəricilərlə uzlaşdırılması, müəllimlərin peşəkarlıq səviyyəsinə görə kateqoriyalara bölünməsi, onların əməkhaqlarının peşəkarlıq göstəricilərinə uyğunlaşdırılması sisteminin qurulması, təhsil işçilərinə pandemiya və post-pandemiya dövrünün çağırışlarına müvafiq bacarıqların verilməsi, açıq və əlçatan resurslardan sərbəst öyrənmə mədəniyyətinin müəllimlər arasında təşviq edilməsi ilə bağlı təkliflər də verilib.

Sonda təkliflərin ümumiləşdirilərək müvafiq qərarların qəbul olunması üçün Təhsil Nazirliyinə təqdim edilməsi qərara alınıb.

## "Ümumi təhsil müəssisəsində mühafizə xidmətinin təşkili Qaydası"nın təsdiq edilməsi haqqında

**Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı**

"Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 may tarixli 711 nömrəli Fərmanının 1.1.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Ümumi təhsil müəssisəsində mühafizə xidmətinin təşkili Qaydası" təsdiq edilsin (əlavə olunur).

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş Naziri**

*Bakı şəhəri, 19 iyun 2020-ci il*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 19 iyun tarixli 209 nömrəli Qərarı ilə təsdiq edilmişdir*

# Ümumi təhsil müəssisəsində mühafizə xidmətinin təşkili QAYDASI

### 1. Ümumi müddəalar

1.1. "Ümumi təhsil müəssisəsində mühafizə xidmətinin təşkili Qaydası" (bundan sonra - Qayda) "Ümumi təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 12.16-cı maddəsinə əsasən hazırlanmışdır və təhsilalanların, pedaqoji və texniki heyətin təhlükəsizliyini təmin etmək məqsədilə ümumi təhsil müəssisələrində mühafizə xidmətinin təşkili məsələlərini tənzimləyir.

1.2. Bu Qayda xüsusi təyinatlı ümumi təhsil müəssisələri istisna olmaqla, tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq, bütün ümumi təhsil müəssisələrinə şamil edilir.

1.3. Mülkiyyət formasından asılı olmayaraq, bütün ümumi təhsil müəssisələri təhsilalanların, pedaqoji və texniki heyətin təhlükəsizliyini təmin etmək məqsədilə tədbirlər görməlidir.

1.4. Dövlət ümumi təhsil müəssisəsində mühafizə xidmətinin təşkili dövlət büdcəsində aidiyyəti dövlət orqanları (qurumları) üçün nəzərdə tutulmuş vəsaitlər, habelə qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına, özəl və bələdiyyə ümumi təhsil müəssisələrində isə öz vəsaitləri hesabına həyata keçirilir.

### 2. Dövlət ümumi təhsil müəssisəsində mühafizə xidmətinin təşkili

2.1. Dövlət ümumi təhsil müəssisəsində (bundan sonra - obyektlər) mühafizə xidmətinin təşkili müqavilə əsasında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Mühafizə İdarəsinin mühafizə hissələri (bundan sonra - mühafizə hissələri) tərəfindən "həyəcan" siqnalizasiyası sistemi vasitəsilə həyata keçirilir.

2.2. Obyektlərin mühafizəsi mühafizə hissələri tərəfindən "həyəcan" siqnalizasiya sistemi vasitəsilə obyektlərə, orada çalışan pedaqoji və texniki heyətə, təhsilalanlara, habelə mühafizə xidmətinin əməkdaşlarına edilə biləcək hüquqazidd qəsdlərin qarşısının alınması məqsədilə polis naryadının çağırılması üçün həyata keçirilir.

2.3. "Həyəcan" siqnalizasiya sistemi aşağıdakı tərkib hissələrindən ibarətdir:

2.3.1. məlumatvermə sistemləri;

2.3.2. nəzarət-qəbuledici cihazı;

2.3.3. radioötürücüyə qoşulan "həyəcan" siqnalizasiyası şleyfi.

2.4. "Həyəcan" siqnalizasiya şleyfi aşağıdakı tərkib hissələrindən ibarətdir:

2.4.1. əyləc;

2.4.2. düymə;

2.4.3. açar;

2.4.4. brelok.

2.5. Qeyd olunan "həyəcan" siqnalizasiya sisteminin tərkib hissələri obyektlərdə Baş Mühafizə İdarəsi tərəfindən müəyyən edilən tələblərə uyğun müvafiq yerlərdə, o cümlədən istehsalçının təyin etdiyi qaydada quraşdırılır.

2.6. Şleyfə qoşulan əyləc elə quraşdırılmalıdır ki, ayaq və ya dizlə kənar şəxslər tərəfindən hiss olunmadan işə salınması mümkün olsun.

2.7. Şleyfə qoşulan hissələr işə salınarkən hər hansı bir səs verməməli və yaxud bu səs eşidilməz dərəcədə olmalıdır.

2.8. Şleyfə qoşulan hissələr görünməməli, maksimum gizli şəkildə quraşdırılmalıdır.

2.9. Obyektlərin "həyəcan" siqnalizasiya sistemlərinin köməyi ilə müşahidə olunması üçün "həyəcan" siqnalizasiya şleyfi birbaşa siqnalizasiya sistemlərinin son qurğusu (telefon kanalı, radiokanal qurğuları və s.) vasitəsilə Mərkəzi Mühafizə Məntəqəsinə qoşulur və daimi enerji ilə təmin olunması üçün əlavə qida mənbəyi (UPS) quraşdırılır.

2.10. Mərkəzi Mühafizə Məntəqəsi fəaliyyət göstərməyən inzibati ərazi bölgüsündə olan obyektlərdə quraşdırılmış "həyəcan" siqnalizasiya sisteminin çıxışı xüsusi rabitə vasitələri ilə yaxınlıqda olan polis postunda quraşdırılmış nəzarət-qəbuledici cihazının ayrıca zonasına qoşulur.

2.11. Obyektlərdə quraşdırılmış "həyəcan" siqnalizasiya sistemlərindən istifadə üçün müəssisənin rəhbəri tərəfindən müvafiq əmrlə müəssisə əməkdaşları sırasından aidiyyəti məsul şəxs (şəxslər) təyin edilir.

2.12. "Həyəcan" siqnalizasiya sistemi üzrə məsul şəxsin (şəxslərin) vəzifələri aşağıdakılardır:

2.12.1. obyektdə baş verə biləcək hər hansı hüquqazidd qəsdlərin qarşısının alınması məqsədilə "həyəcan" siqnalizasiyasının işə salınması;

2.12.2. "həyəcan" siqnalizasiya sisteminin obyektdə quraşdırılmış mexanizmlərinin qorunub saxlanılması;

2.12.3. sistemin yerləşdiyi yer barədə məlumatın qorunub saxlanılması;

2.12.4. sistemin vəziyyəti barədə müəssisə rəhbərinin mütəmadi məlumatlandırılması.

2.13. Məsul şəxs (şəxslər) sistemin zərurət olmadan işə salınmasına görə məsuliyyət daşıyır.

2.14. Polis naryadı "həyəcan" düyməsinin köməyi ilə müşahidə olunan obyektlərdən "həyəcan" siqnalı barədə məlumat aldıqda, hadisə yerinə gizlin yaxınlaşmalı, qanun pozucusu aşkar olunduqda özünün, obyektdə olan işçilərin və vətəndaşların təhlükəsizliyini təmin etməklə, onun zərərsizləşdirilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş qaydada hərəkət etməlidir.

### 3. Özəl və bələdiyyə ümumi təhsil müəssisələrində mühafizə xidmətinin təşkili

3.1. Özəl və bələdiyyə ümumi təhsil müəssisələri mühafizə xidmətinin təşkili ilə əlaqədar göstərilən bütün mühafizə xidməti növlərindən istifadə edə bilər.

3.2. Özəl və bələdiyyə ümumi təhsil müəssisələrinin mühafizəsi qanunvericiliyə uyğun təşkil edilməklə özləri tərəfindən, habelə müqavilə əsasında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Mühafizə İdarəsinin mühafizə hissələri və ya özəl mühafizə müəssisələri tərəfindən "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

## "Dövlət ümumi təhsil müəssisəsində siniflər üzrə şagird sıxlığı normaları"nın təsdiq edilməsi haqqında

**Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı**

"Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 may tarixli 711 nömrəli Fərmanının 1.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Dövlət ümumi təhsil müəssisəsində siniflər üzrə şagird sıxlığı normaları" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərar 2020/2021-ci tədris ilindən tətbiq edilir.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş Naziri**

*Bakı şəhəri, 22 iyun 2020-ci il*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 22 iyun tarixli 212 nömrəli Qərarı ilə təsdiq edilmişdir*

# Dövlət ümumi təhsil müəssisəsində siniflər üzrə şagird sıxlığı NORMALARI

**1.** Bu Normalar "Ümumi təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 12.8-ci maddəsinə uyğun olaraq sinif otağının bir şagird üçün müəyyən edilmiş sahə normativi nəzərə alınmaqla hazırlanmışdır.

**2.** Dövlət ümumi təhsil müəssisəsində ibtidai (I-IV siniflər), ümumi orta (V-IX siniflər) və tam orta (X-XI siniflər) təhsil səviyyələri üzrə siniflər (təmayül siniflər istisna olmaqla) şagirdlərin sayı 20 nəfərdən az olmamaqla təşkil edilir.

**3.** Dövlət ümumi təhsil müəssisəsi üzrə bir sinifdə şagirdlərin ümumi sayı 20 nəfərə çatmadıqda, sinif mövcud şagird sayı ilə təşkil (bu Normaların 4-cü hissəsi ilə müəyyən edilmiş hallar istisna olmaqla) edilir.

**4.** İbtidai təhsil səviyyəsinin bir sinfində şagird sayı 10 nəfərdən az olduqda, həmin sinif ibtidai təhsil səviyyəsinin şagird sayı 10 nəfərdən az olan digər bir sinfi ilə birləşdirilərək komplekt siniflər təşkil olunur. Komplekt siniflər şagird sayı 18 nəfərdən çox olmamaqla təşkil edilir.

**5.** Eyni bir sinifdə şagirdlərin sayı 30 nəfərdən çox olduqda və ya şagirdlərin bir sinifdə tədrisinə sinif otağının ölçüsü imkan vermədikdə, həmin sinif üzrə ikinci paralel sinif təşkil edilir.

**6.** Tədris ilinin birinci yarısında hər hansı bir səbəbdən sinifdə şagirdlərin sayı 3 nəfərdən çox azaldıqda və ya artdıqda, sinif bu Normalarla müəyyən edilmiş say həddində birləşdirilir və ya paralel sinif təşkil edilir.

**7.** Tədris ilinin birinci yarısında sinifdə şagirdlərin sayının azalması tədris planı ilə müəyyən edilmiş müvafiq fənlərin tədrisində sinfin iki qrupa bölünməsinə məhdudiyyət yaratmır.

**8.** Tam orta təhsil səviyyəsində təmayül siniflər 15 nəfərdən az və 20 nəfərdən çox olmamaqla təşkil edilir. Eyni təmayül sinfində şagirdlərin sayı 20 nəfərdən çox olduqda paralel siniflər təşkil edilir. Tədris ili ərzində təmayül sinfində şagird sayının azalması bu sinfin həmin və ya növbəti tədris ilində fəaliyyətinin davam etdirilməsinə, həmçinin tədris planı ilə müəyyən edilmiş müvafiq fənlərin tədrisində iki qrupa bölünməsinə məhdudiyyət yaratmır.

## Gənclərin peşəyə istiqamətləndirilməsi yönündə maarifləndirici tədbirlər

İyunun 24-də "Virtual məktəb" layihəsi çərçivəsində "Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində təhsil imkanları" mövzusunda onlayn tədbir keçirilib.

Tədbir mərkəzin peşəyönümü işlərinin planına uyğun olaraq, mərkəzin müəllim və pedaqoji-mühəndis heyətinin iştirakı ilə baş tutub. Məqsəd gənclərin peşəyə istiqamətləndirilməsi yönündə maarifləndirmə işlərinin aparılması və peşə təhsilinin vacibliyinin aşılanmasıdır.

Görüşdə mərkəzdə tədris olunan "Avtomobil diaqnostikası və təmiri üzrə usta", "Veb dizayner və proqram təminatçısı", "Avtomatika üzrə usta", "İnşaat ustası", "Elektrik avadanlıqlarına xidmət və təmiri üzrə elektrik montyoru" , "Elektronika ustası" , "Torna və frezer dəzgahlarının operatoru" və "Sənayedə quraşdırma işləri üzrə usta" ixtisaslarının təqdimatı nümayiş olunub, bu ixtisaslara qəbul qaydaları barədə ətraflı məlumat verilib.

Bununla yanaşı, təşkil olunmuş tədbir çərçivəsində 2019-2020-ci tədris ilini uğurla başa vurmuş Təhsil Mərkəzinin təqdimatı həyata keçirilib. Tədris olunan 8 texniki ixtisas haqqında ətraflı məlumat verilib, zəngin maddi-texniki baza imkanlar təqdim edilib, strukturda mövcud olan emalatxana və laboratoriya otaqlarına virtual turlar təşkil olunub.

Eyni zamanda, görüşdə işəgötürənlərlə əməkdaşlığın perspektivlərindən söz açılıb. Qeyd olunub ki, Mərkəzin əsas missiyası müasir tələblərə və qlobal sənaye ehtiyaclarına hazır olan rəqabətqabiliyyətli kadrlar hazırlamaq və onları tərəfdaş şirkətlərdə iş imkanları ilə təmin etməkdir.

Görüşün sonunda ünvanlandırılan bütün suallar iştirakçılar tərəfindən cavablandırılıb.

Qeyd edək ki, 12, 18 iyun tarixlərində də Mərkəz tərəfindən "Virtual məktəb" layihəsi çərçivəsində peşəyönümü üzrə təbliğat xarakterli distant tədbirlər həyata keçirilib.

## Vyetnamda təhsil imkanı



Vyetnam Milli Universitetinin Beynəlxalq Frankofoniya İnstitutu 2020-2021-ci tədris ili üzrə Vyetnam Milli Universiteti və Fransanın "University of La Rochelle" ali təhsil müəssisəsi ilə birgə həyata keçirdiyi təqaüd proqramını elan edir.

Magistratura səviyyəsi üzrə nəzərdə tutulan təqaüd proqramı çərçivəsində təhsil müddəti 2 ildir.

Son müraciət tarixi 15 iyul 2020-ci ildir.

Təqaüd proqramı ilə bağlı ətraflı məlumatla elan vasitəsilə tanış ola bilərsiniz.

## “Virtual məktəb” portalında

### Abituriyentlər üçün teledərslər

Təhsil Nazirliyinin təşkilatçılığı ilə “Mədəniyyət” və “ARB Günəş” telekanallarında yayımlanan abituriyentlər üçün teledərslər “Virtual məktəb” portalına əlavə olunur.

Ümumiləşdirmələr, təhlillər, açıq və qapalı sualların “şifrələri”, kompleks məsələlərin həlli üsulları, mətnlə iş, informasiyanı düzgün emal etmək bacarığının inkişafına xidmət edən bu dərslər abituriyentlərə imtahana daha yaxşı hazırlaşmağa imkan verəcək.

Canlı olaraq dərsləri izləyə bilməyən və yaxud mövzunu təkrar etmək istəyən X-XI sinif şagirdləri “Virtual məktəb”də dərsləri yenidən izləmək imkanı əldə edəcəklər. Bunun üçün “Teams > General” bölməsində müvafiq olaraq “Abituriyentlər” altbölməsinə daxil olmaq lazımdır.

Qeyd edək ki, hər gün təhsil imkanları genişləndirilən “Virtual məktəb”də yerli və beynəlxalq səviyyəli yeni interaktiv alətlər, tədris məzmunlu resurslar əlavə olunur. Portalda video və audio dərslər keçirilir, teledərslər izlənilir, həmçinin Təhsil Nazirliyinin elektron tədris resurslarından istifadə edilir. Yaradılmış xüsusi qruplarda məktəb rəhbərliyi və müəllimlərlə birgə pedaqoji şuralar, valideynlərlə iclaslar keçirilir, şagirdlər tərəfindən həftəlik tapşırıqlar həll edilir, müəllim, şagird və valideynlər üçün onlayn seminar və kurslar təşkil olunur.

### Şagirdlərin biliklərinin monitorinqi məqsədilə yeni testlər

“Virtual məktəb” portalına Azərbaycan və rus bölmələri olmaqla II-VIII və X siniflər üzrə yeni test tapşırıqları hazırlanaraq əlavə olunub.

Məqsəd şagirdlərin müxtəlif fənlər üzrə bilik və bacarıqlarının monitorinqinin aparılmasıdır.

Test tapşırıqları 20 iyun tarixindən etibarən 14 gün müddətində aktiv olacaq. Test tapşırıqlarını yerinə yetirmək üçün portalda “Teams > General” bölməsində müvafiq olaraq “Testlər” altbölməsinə daxil olmaq lazımdır.

Monitorinqdə iştirak şagirdlərə tədris ili ərzində öyrəndiklərini yoxlamaq, müəllimlərə isə növbəti il üçün zəruri tədbirlər hazırlamaq imkanı verəcək. Monitorinqdə daha çox şagirdin iştirakı daha aydın mənzərənin alınması deməkdir. Bu səbəbdən bütün maraqlı tərəflərin (şagirdlər, müəllimlər, valideynlər, məktəb rəhbərləri) prosesə ciddi yanaşacağına ümid edirik.

### “Rəqəmsal bacarıqlar” layihəsi

Şagirdlərdə alqoritmik düşüncə və məntiqi təfəkkürün, eləcə də layihə qurmaq və icra etmək bacarıqlarının inkişafına xidmət edən “Rəqəmsal bacarıqlar” layihəsi “Virtual məktəb” portalına inteqrasiya olunub. Sözügedən layihə təhsilalanlara yeni texnologiya və rəqəmsal bacarıqları təcrübədə öyrənməyə, proqramlaşdırmanın sirlərinə bələd olmağa imkan yaradır.

“Rəqəmsal bacarıqlar” layihəsinə üzv olan məktəblərin müəllim və şagird heyəti “Virtual məktəb” portalında “More added apps” bölməsindən “Algorithmics” tətbiqini əlavə etməklə layihə üzrə fəaliyyətlərini birbaşa bu portalda davam etdirə bilərlər.

Qeyd edək ki, “Rəqəmsal bacarıqlar” layihəsi 2019-2020-ci tədris ilində Bakı, Sumqayıt, Gəncə, Biləsuvar, Şamaxı və Mingəçevir şəhərləri üzrə 123 məktəbi və 70 mindən çox şagirdi əhatə edib. Layihə çərçivəsində informatika fənni yeni formatda tədris olunur, şagirdlər fənn üzrə interaktiv alətlərdən, 300-ə yaxın hazırlanmış teledərs və videodərs materiallarından yararlana bilirlər.

Respublika fənn olimpiadalarının gümüş medalçısı Gültac Seyidova ilə Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyində təşkil edilən beynəlxalq olimpiadalara hazırlıq mərkəzində qarşılaşmışdıq. Mingəçevir şəhər Texniki-humanitar liseyin şagirdi olan Gültacın atası onu istirahət və qeyri-iş günlərində Mingəçevirdən Bakıya gətirir, Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyində fəaliyyət göstərən beynəlxalq olimpiadalara hazırlıq mərkəzinin məşğələlərində iştirakına şərait yaradır. Gültacın sözlərinə görə, onun kimi istedadlı şagirdlərin təhsil aldığı lisey rayonda ən yaxşı göstəriciləri olan məktəbdir. Buna baxmayaraq, beynəlxalq olimpiadalara hazırlıq mərkəzində iştirak etmək üçün bayram tətilləri və istirahət günlərində Mingəçevirdən Bakıya gəlir, burdakı hazırlıq imkanlarından da yararlanır. Onun sözlərinə görə, keyfiyyətli təhsil dalınca onun kimi Qubadan, Mingəçevirdən paytaxta üz tutanların sayı az deyil. Ancaq, deyəsən, buna artıq ehtiyac qalmayacaq. Ölkəmizin hər yerində istedadlı uşaqların üz tuta biləcəyi təhsil müəssisələri olacaq.



# Bölgələrdə istedadlı uşaqlar üçün 5 yeni lisey

**Ruhiyyə DAŞSALAHLI**

## *Xamis Seyranov:* “Bu addımın şagirdlərimizin mövcud potensiallarının artırılması və inkişaf etdirilməsində əvəzsiz rol oynayacağına inanırıq”

Gültac kimi istedadlı şagirdlərin üzə çıxarılması, onların potensialının inkişaf etdirilməsi ölkəmizdə təhsil siyasətinin vacib istiqamətlərindən biridir. Bunun nəticəsidir ki, respublika fənn olimpiadalarında və müsabiqələrində yüksək nəticə göstərərək diqqəti cəlb edən şagirdlər xüsusi proqram əsasında tədrisə cəlb edilirlər. Son illər düzənli, ardıcıl xarakter alan bu prosesin nəticəsində istedadlı şagirdlərin keyfiyyətli təhsilə əlçatanlığı artıb. Belə ki, hər il yeni tipli təhsil müəssisələrinin şəbəkəsi genişləndirilərək bu məqsədə doğru daha bir addım atılır. Ötən tədris ilindən regionlarda xüsusi siniflərin yaradılması atılan addımlardan biri idi. Növbəti tədris ilindən isə Təhsil Nazirliyi bu istiqamətdə tədbirlərini genişləndirərək məqsədə daha çox yaxınlaşıb. Belə ki, 5 regionda yeni liseylərin fəaliyyətinə qərar verilib. Qərara əsasən sentyabr ayından başlayaraq Gəncə şəhəri və Quba rayonunda Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyi, Şəki, Şəmkir və Şirvanda isə Kimya-biologiya təmayüllü Respublika liseyi yaradılıb. Qeyd edək ki, Şəmkir istisna olmaqla, digər rayonlarda ötən ildən müvafiq istiqamətlər üzrə lisey sinifləri fəaliyyət göstərirdi. Bununla da istedadlı uşaqlar üçün keyfiyyətli təhsil, sadəcə Bakıda deyil, bütün ölkə ərazisində əlçatan olub. Təhsil Nazirliyinin Təhsilin inkişafı proqramları şöbəsinin Layihələrlə iş sektorunun müdiri Xamis Seyranov “Azərbaycan müəllimi” qəzetinə bu zərurəti belə izah edib: “Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyinin və Kimya-biologiya təmayüllü Respublika liseyinin iyirmi ilə yaxındır ki, Bakıda fəaliyyət göstərdiyini nəzərə alsaq, ölkəmizin ayrı-ayrı regionlarından olan xüsusi istedadlı uşaqların potensial imkanlarının üzə çıxarılmasında, onların inkişafının təmin edilməsində müəyyən problemlər yaranırdı. Respublika fənn olimpiadalarında və müsabiqələrdə yüksək nəticə göstərərək diqqəti cəlb edən şagirdlərin xüsusi proqram əsasında tədrisə cəlb edilməsinin yeni yolları axtarılırdı. Əsas məsələlərdən biri bu idi ki, ölkə üzrə bacarıqlı uşaqların heç də hamısının Bakı şəhərində fəaliyyət göstərən liseylərə qəbul olunmaları mümkün olmur. Bu səbəbdən bölgələrdə də uşaq və gənclərin potensial imkanlarının aşkar və inkişaf etdirilməsi, onların səmərəli təhsil almalarına lazımi şəraitin yaradılması üçün ciddi zərurət vardı. Odur ki, Bakıda fəaliyyət göstərən və uğur qazanan 2 liseyin - Fizika, riyaziyyat və informatika və Kimya-biologiya təmayüllü liseylərin uzun illər formalaşmış ənənələrinin regionlarda da davam etdirilməsinə qərar verilib.

Məhz bu zərurət nəzərə alınaraq 2019-2020-ci tədris ilindən başlayaraq Gəncə, Şirvan, Şəki və Qubada Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyinin və Kimya-biologiya təmayüllü Respublika liseyinin lisey sinifləri təşkil edildi. Burada 31 sinif komplektində 400-dən artıq şagirdin xüsusi siniflərdə təhsil alması təmin edilmişdi. Ümumilikdə hesab edirik ki, regionlarda liseylərin yaradılması ölkənin bütün ərazisi üzrə istedadlı uşaqların aşkara çıxarılmasını, onların daha keyfiyyətli təhsilə cəlb edilməsini təmin edəcək. Bu addımın şagirdlərimizin mövcud potensiallarının artırılması və inkişaf etdirilməsində əvəzsiz rol oynayacağına inanırıq”.

Elə bu inamla da istedadlı uşaqlar üçün ötən il yaradılan xüsusi siniflər qısa zamanda xüsusi təhsil müəssisələrinə çevrilib. Yeni təhsil müəssisələrinin fəaliyyət göstərəcəyi binalar müəyyən edilib, bazasının formalaşdırılmasına başlanılıb. Sentyabrda həmin lisey siniflərinin bazasında fəaliyyətə başlayacaq yeni təhsil müəssisələrinin növbəti mərhələdə pedaqoji heyəti və şagirdlərini müəyyən etmək üçün müsabiqələr təşkil olunacaq.

### Xüsusi inkişaf proqramına əsaslanan təhsil

Beləliklə, yeni liseylərin tədris proqramları və metodları Bakı şəhərində mövcud olan liseylərə uyğun olaraq həyata keçiriləcək. X.Seyranov Təhsil Nazirliyinin birbaşa tabeliyində uzun illər Bakıda fəaliyyət göstərən Fizika, riyaziyyat və informatika təmayüllü və Kimya-biologiya təmayüllü liseylərdə tətbiq edilən tədris proqramları və metodlarına diqqət çəkib. Deyib ki, mövcud lisey, gimnaziya və bu tipli təhsil müəssisələrində həm təhsilin məzmunu müasir tələblərə uyğunlaşdırılır, həm də yeni tədris proqramları hazırlanaraq tətbiq edilir. Bu da öz növbəsində nəticəyə birbaşa təsir göstərir: “Xüsusi inkişaf proqramının hazırlanması, həmin proqramın tətbiq edilməsi strateji hədəf kimi müəyyən edilib. Həmin strateji hədəflərə nail olunması istiqamətində ölkədə bir neçə dərinləşdirilmiş təmayül əsasında tədris həyata keçirildiyi liseylər fəaliyyət göstərir. Bildiyiniz kimi, indiyədək istedadlı şagirdlərin üzə çıxarılması, onların potensialının inkişaf etdirilməsi məqsədi ilə ümumilikdə ölkə üzrə şagirdlərin həmin liseylərə cəlb edilməsi ilə daha dərinləşdirilmiş tədris həyata keçirilib. Eyni zamanda istedadlı şagirdlərin aşkara çıxarılması da respublikada keçirilən fənn olimpiadaları və müsabiqələr vasitəsi ilə mümkün olub. Həmin liseylərdə tədris istedadlı şagirdlərin potensialının inkişaf etdirilməsi məqsədinə xidmət etdiyindən burada tədris özünəməxsus fəaliyyət planı, strategiyası, dərinləşdirilmiş proqramlar və tədris metodları ilə həyata keçirilib. Bu müddət ərzində həmin təhsil müəssisələrinin şagirdlərinin ali məktəblərə qəbul imtahanlarında və başqa müsabiqələrdə fəal iştirakı və daha yüksək nəticələr əldə etmələri xüsusi nəzərə çarpıb”.

### Yeni liseylərə qəbul başlayır

Beləliklə, regionlarda yeni yaradılan liseylər növbəti tədris ilindən başlayaraq dərinləşdirilmiş təmayül əsasında tədris həyata keçirəcək. Şəmkir istisna olmaqla, digər 4 rayonda yaradılan liseylərin ilk şagirdləri, yəni ötən il müvafiq istiqamətlər üzrə lisey siniflərində təhsil alan 400 nəfərdən artıq şagird səbirsizliklə yeni təhsil müəssisələrinin qapılarının üzlərinə açılacağı günü gözləyir. Ancaq yeni təhsil müəssisələrinin yeni şagirdləri də olacaq. X.Seyranovun sözlərinə görə, həmin təhsil müəssisələrində oxumaq istəyən 6-9-cu sinif şagirdləri keçiriləcək müsabiqəyə hazırlaşmağa başlaya bilərlər: “Yeni liseylərə şagirdlərin qəbulu VI sinifdən aparılır. Bu il 6, 7, 8 və 9-cu siniflərə qəbul elan ediləcək. Avqust ayında keçirilməsi planlaşdırılan qəbul Təhsil Nazirliyi tərəfindən elan ediləcək müsabiqə əsasında həyata keçiriləcək. Bununla bağlı qəbul elanları veriləcək və ictimaiyyət ətraflı şəkildə məlumatlandırılacaq”.

Şagirdlərin qəbulu zamanı liseylərin yerləşdiyi regionların, yəni liseylərin mövcud olduğu rayonlara yanaşı, ətraf rayon və şəhərlərdən olan şagirdlərə də üstünlük veriləcək. Şagird qəbulu aparılan tədris ilindən əvvəlki 2 il ərzində Təhsil Nazirliyi tərəfindən aparılan müsabiqələrdə yüksək nəticə göstərən şagirdlərin yeni liseylərə müsabiqədənkənar qəbulu nəzərdə tutulub.

Test şəklində olacaq qəbul imtahanlarına Azərbaycan dili və riyaziyyat fənləri üzrə tapşırıqlar, qeyri-standart düşünmə bacarıqlarını yoxlayan suallar, məntiqi tapşırıqlar salınacaq. Eyni zamanda IX siniflərə qəbul zamanı, əlavə olaraq, şagirdlərin fizika və kimya fənləri üzrə bilikləri də yoxlanılacaq. Liseylərdə yalnız Azərbaycan dili üzrə tədris nəzərdə tutulub. X.Seyranov hazırda digər dildə tədrisin aparılması planlaşdırılmasa da, gələcəkdə bunun da mümkün olacağını istisna etməyib.

### Müsabiqə hər hansı planın doldurulması üzrə həyata keçirilməyəcək

Ötən tədris ilində formalaşdırılan 4 xüsusi sinif komplektində 400-dən artıq şagird təhsilə cəlb edilmişdi. Maraqlıdır, növbəti tədris ili üçün sözügedən regionlardan nə qədər istedadlı şagirdin xüsusi proqram əsasında təhsilə cəlb ediləcəyi gözlənilir? X.Seyranov hesab edir ki, bunu öncədən planlaşdırmaq, ya da hər hansı məhdudiyyət qoymaq doğru deyil. Çünki əsas məsələ sayından asılı olmayaraq, istedadlı şagirdləri seçib, onlara keyfiyyətli təhsil verməkdir: “Müsabiqə hər hansı planın doldurulması üzrə həyata keçirilməyəcək. Əksinə, tələblərə cavab verəcək nə qədər istedadlı uşaq varsa, onların hamısının təmayül proqramları üzrə tədrisə cəlb edilməsi nəzərdə tutulur”.

### Yeni liseylərdə ən yüksək bal toplayan peşəkar müəllimlər dərs deyəcək

Yeni yaradılan liseylərdə tədrisi həyata keçirəcək pedaqoji heyətin seçilməsi zamanı ilk növbədə Təhsil Nazirliyi tərəfindən keçirilən müəllimlərin işə qəbulu üzrə müsabiqənin və diaqnostik qiymətləndirmələrin nəticələrinə əsaslanılacaq. X.Seyranovun sözlərinə görə, yeni liseylərin müəllimləri yüksək bal toplamış müəllimlər sırasından müsabiqə əsasında seçiləcək: “Regionlar üzrə seçim həyata keçiriləcək. Təmayül istiqamətlərindən asılı olaraq, müvafiq şəhər və rayonlarda işləyən təcrübəli müəllimlər müsabiqə yolu ilə seçiləcək. Müəllimləri Təhsil Nazirliyinin müəyyən etdiyi komissiya şəffaf, bərabər, ədalətli seçim prosesi əsasında seçəcək. Seçim zamanı komissiya üzvləri müəllimin təcrübəsi, təmayül istiqamətləri üzrə biliyi, müvafiq qiymətləndirmələrdəki nəticələri ilə yanaşı, təmayül siniflərində dərinləşdirilmiş proqramlarla işləyə bilmək üçün məntiqi təfəkkürünü, dünyagörüşünü də qiymətləndirəcək”.

### Yeni liseylər təhsilimizə yenilik gətirəcək

Azərbaycanda ilk liseyin yaradılmasından 30 ilə yaxın vaxt keçir. Bu müddət ərzində verdiyi təhsil liseyləri fərqləndirib. İstedadlı şagirdlərə xüsusi proqram əsasında verdiyi təhsil həmin müəssisələrin nəticələrini yüksəltdiyi kimi, nüfuzunu da ildən-ilə artırıb. İndi onların siyahısına daha 5 məktəb əlavə olunur. Üstəlik, yeni beşlik lisey təcrübəsini ölkəmizin dörd bir yanına yayacaq. Təhsildə daha böyük nailiyyətlər qazanmaq üçün daha heç kimin kitabını qoluna vurub el-el dolaşmasına gərək qalmayacaq. Şübhəsiz, istedadlı Azərbaycan məktəblisi təhsildə qazandığı bu yeni imkanı mütləq dəyərləndirəcək!




# İlk təcrübə və böyük uğur

## ADNSU-nun ilk onlayn Məzun-Karyera sərgisi

**Bəhruz NƏZƏROV**



### Sərgiyə hazırlıq mərhələsi

İyunun 11-də Azərbaycan Dövlət Neft və Sənaye Universiteti yuxarı kurs tələbələri və məzunları üçün onlayn formatda VIII Məzun-Karyera sərgisini keçirdi. Bir tədris ili ərzində iki dəfə - dekabr və may aylarında keçirilən, universitetdə artıq ənənəvi hal almış və yüzlərlə tələbənin işə düzəlməsində vasitəçi rolu oynamış Məzun-Karyera sərgilərində həm tələbə və məzunlar, həm də işəgötürənlər böyük həvəslə iştirak edir. ADNSU-nun Məzun-Karyera sərgilərinə marağın yüksək olması onun ötən illər ərzində özünü effektiv platforma olaraq təsdiqləməsi ilə bağlıdır. Koronavirus pandemiyası VIII Məzun-Karyerasının keçirilməsi ilə bağlı planlara bəzi dəyişikliklərin olunmasını zəruri etdi və bu dəfə ilk dəfə olaraq ADNSU tələbə-məzunları və işəgötürənləri onlayn platformada bir araya gətirdi. Onlayn formatda ilk təcrübə olduğu üçün sərginin nə dərəcədə uğurlu olacağı ilə bağlı əvvəlcə şübhələr olsa da, görülən işlər - şirkətlərlə danışıqlar və onların sərgidə iştiraka həvəslə razılıq verməsi, qısa müddət ərzində Məzun-Karyera sərgisinin *career.asoiu.edu.az* web səhifəsinin hazırlanması, tələbələrin tez-tez maraqlanması və ən əsası Təhsil Nazirliyinin tədbirə dəstəyi sərgi günü - 11 iyun tarixi yaxınlaşdıqca həmin şübhələrin aradan qalxmasına səbəb oldu. ADNSU-nun ənənəvi olaraq keçirdiyi Məzun-Karyera sərgiləri ilə müqayisədə onlayn sərgidə orta hesabla 2-2,5 dəfə az şirkət və vakant yer - 37 dövlət qurumu və özəl şirkət tərəfindən 217 vakant iş yeri təklif olunsa da, koronavirus pandemiyası ilə mübarizə şəraitində bu, çox sevindirici nəticə idi. Bu sevinc üçün əsas səbəblərdən biri də Azərbaycan Prezidentinin humanist siyasəti və bundan qaynaqlanaraq pandemiya şəraitində işəgötürənlərin işçilərlə əmək müqaviləsinə əsassız surətdə xitam verməməsi üçün nəzarətin gücləndirilməsi istiqamətində tədbirlərin görülməsi idi.

### Azərbaycandakı humanist siyasətin Məzun-Karyera Sərgisinə mühüm töhfəsi

Beynəlxalq Əmək Təşkilatının koronavirus pandemiyasının əmək bazarına təsiri ilə bağlı açıqladığı hesabata görə, dünya üzrə təxminən 25 milyon nəfər işsiz qala və əmək böhranı yarana bilər. Hesabatda pandemiyanın əmək bazarına təsirini azaltmaq və ya aradan qaldırmaq üçün görüləcək əsas tədbirlər də qeyd edilib. Bu tədbirlər sırasına sosial müdafiənin gücləndirilməsi, qısa iş vaxtı, ödənişli məzuniyyət və digər təşviqlərlə məşğulluğun qorunmasına dəstək verilməsi göstərilib. Azərbaycan Respublikasında pandemiyanın əmək bazarına təsiri özünü xüsusilə iki sahədə - turizm və ictimai iaşə sektorlarında göstərsə də hökumətin elan etdiyi 3,5 milyon manatlıq sosial paket bu mənfi təsirin xeyli dərəcədə azalmasına səbəb olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin humanist siyasətinin nəticəsi olaraq, bu gün təkcə işsizlər deyil, onlarla bərabər, bu vaxta qədər qeyri-formal şəkildə, yəni əmək müqaviləsi olmadan işləmiş və elə bu səbəbdən də xüsusi karantin rejimində dərhal işini itirmiş insanlar da birdəfəlik ödəmə proqramı ilə əhatə olundular. "Pandemiya dövründə həm dövlət, həm də özəl sektorda iş yerlərinin qorunmasına nail olunub. Bu ilin əvvəlindən əmək müqavilələrinin sayı 85,4 min artıb", - bunu isə Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev videobağlantı formasında keçirilən kollegiya iclasında deyib. Bu artım, əsasən, qeyri-formal məşğulluqdan formal məşğulluğa keçidlə bağlı olub. "Yeni müqavilələrin hansı sahələr üzrə bağlanmasının təhlilinin aparılması, yeni bağlanan müqavilələrə post-karantin dövründə xitam verilməməsi üçün "Əmək müqaviləsi bildirişi" e-sistemi üzərindən ciddi nəzarətin həyata keçirilməsi tapşırılıb.

Azərbaycan dövləti regionun lideridirsə, Azərbaycan xalqı da bölgəmizin ən mütərəqqi milli dəyərlərə sahib olan toplumudur. Minilliklərdən bəri dar gündə bir-birinə əl tutan xalqımız Azərbaycan Prezidentinin "Biz Birlikdə Güclüyük!"çağırışı ilə səfərbər olub. Bu səbəbdəndir ki, əksər dövlət qurumları və özəl şirkətlər koronavirus pandemiyası ilə bağlı yaranmış həssas şəraitdə əsl vətəndaş mövqeyindən çıxış edərək nəinki əməkdaşlarını ixtisar etmədilər, əksinə, işə yeni əməkdaşlar cəlb etməyə hazır olduqlarını bəyan etdilər. Məzun-Karyera sərgisinə hazırlıq mərhələsində şirkətlərlə təmasımız zamanı demək olar ki, bütün şirkətlərin reaksiyası belə idi. Bu, həmin şirkətlərin ölkədə keçirilən islahatları sadəcə dəstəklədiyinin deyil, həmin prosesin iştirakçısı olduqlarının, dövlətlə sosial məsuliyyətini daim bölüşmüş və hazırda da bunu davam etdirdiyinin nümayişi idi. Bütün bu müşahidə etdiklərimiz ADNSU-nun kollektivinə böyük ruh yüksəkliyi ilə onlayn Məzun-Karyera Sərgisinə start verməyə əsas verirdi.

- "Çox sevindirici haldır ki, bizim elə ali məktəblərimiz vardır ki, onun sonuncu kurs tələbələrinin iş yerləri artıq bəllidir. Azərbaycan Dövlət Neft və Sənaye Universiteti də bu siyahıda yer alan ali məktəblərdəndir. Universitetin məzunlarının böyük bir qismi qısa zamanda əmək fəaliyyətinə başlayır. Bu bir səmərəlilik, proqramların əmək bazarının tələblərinə uyğunluğunun göstəricisidir", - deyə İdris İsayev bildirib.
- Biz mütəxəssis hazırlayarkən kompetensiyaları işəgötürənlərlə razılaşdırmalı, və həmin kompetensiyaların hans fənlər üzərindən verilməsini müəyyənləşdirməliyik. Proses artıq tam yekunlaşmaq üzrədir və yeni tədris ilinə yeni tədris proqramları ilə başlayacağıq", - deyə rektor M.Babanlı vurğulayıb.
- Sərginin keçirildiyi tarixdən qısa müddət keçməsinə baxmayaraq universitetin tələbə və məzunları tərəfindən saytda yerləşmiş iş elanları üçün 1260 ədəd CV göndərilib və artıq onlarla məzunumuzun işlə təmin olunması barədə məlumat da daxil olub.

### Təhsil Nazirliyi: Məzun-Karyera sərgisi tələbə, ali məktəb və işəgötürənlər üçün səmərəli platformadır

Məzun-Karyera sərgisinin açılışında ilk çıxış edən Təhsil nazirinin müavini İdris İsayev dünyada və ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə şəraitində ADNSU-nun onlayn formatda Mazun-Karyera sərgisi keçirmək təşəbbüsünü alqışlayıb. O, Beynəlxalq Əmək Təşkilatının statistikasına əsasən tələbələrin ali təhsildən əmək bazarına keçid müddətinin təqribən 1 il 4 ay təşkil etdiyini, bəzi ixtisaslar üzrə isə bu keçidin daha uzun zaman tələb etdiyini bildirib. "Çox sevindirici haldır ki, bizim elə ali məktəblərimiz vardır ki, onun sonuncu kurs tələbələrinin iş yerləri artıq bəllidir. Azərbaycan Dövlət Neft və Sənaye Universiteti də bu siyahıda yer alan ali məktəblərdəndir. Universitetin məzunlarının böyük bir qismi qısa zamanda əmək fəaliyyətinə başlayır. Bu bir səmərəlilik, proqramların əmək bazarının tələblərinə uyğunluğunun göstəricisidir", - deyə İdris İsayev bildirib. O müasir dövrdə gənclərin əmək bazarında iş yeri uğrunda daha böyük rəqabətlə rastlaşdıqları ilə əlaqədar gənclər arasında isizlik səviyyəsinin dünyada olduğu kimi, Azərbaycanda da işsizlərin ümumi orta göstəricisindən yüksək olduğunu qeyd edib. Bunun da əsas səbəbi müəssisələrin iş təcrübəsinə və stajına malik olmayan tələbələri adətən işə götürməkdən çəkinmələridir. Tələbələrin əldə etdikləri bilik və bacarıqların əmək bazarının kompetensiyalarına uyğun olmamasının bu prosesi bir qədər də çətinləşdirdiyini söyləyən İdris İsayev burada günahın tək tələbələrdə olmadığını və təhsil müəssisələrinin də müəyyən öhdəlikləri olduğunu vurğulayıb. Universitetlər, ali təhsil müəssisələri tələbələrə sadəcə təhsil verməli deyil, elə tədris aparmalıdır ki, onun verdiyi bilik, bacarıq və səriştələr əmək bazarının tələblərinə uyğun olsun. "Əslində bu sərgi, həm tələbələr, həm təhsil müəssisələri, həm də işəgötürənlərimiz üçün bir fəaliyyət qiymətləndirmə platformasıdır. Təhsil müəssisələri bu platformaya tələbələri qismində öz məhsulunu çıxarmış olur. Ona görə də bizim təhsil müəssisələrimiz bu diaqnostikadan düzgün istifadə etməli, əmək bazarının tez dəyişən tələblərinə uyğun təhsil proqramlarına müvafiq dəyişiklik etməlidirlər, yeni ixtisaslar tətbiq etməlidirlər. İşəgötürənlərimiz üçün də böyük platformadır, çünki onlar bu platformadan istifadə edərək əmək bazarının tələblərini ortaya qoymuş olurlar. Tələbələr üçün isə ona görə səmərəli platformadır ki, onlar sərgidə iştirak edərək əmək bazarının müasir tələbləri barədə məlumat almış olurlar", - deyə İdris İsayev vurğulayıb. Təhsil nazirinin müavini sərgi iştirakçılarına təşəkkürünü bildirib, onlara ADNSU ilə bu sahədə əməkdaşlıq etməklə yanılmadıqlarını qeyd edib. Azərbaycan Prezidentinin Sərəncamı ilə noyabr ayında ADNSU-nun 100 illik yubileyinin qeyd olunacağını söyləyən Təhsil nazirinin müavini uzun onilliklər ərzində ölkənin iqtisadiyyatı, sənayesi və cəmiyyəti üçün yüksək ixtisaslı kadrlar yetişdirən qocaman ali məktəbin gələcək yüzilliklər ərzində də bu prosesi yüksək əzmlə davam etdirəcəyinə inandığını bildirib, sərginin işinə uğurlar arzulayıb.

### Professor Mustafa Babanlı: əmək bazarında ADNSU-nun məzunlarına maraq xeyli artıb

ADNSU-nun rektoru, professor Mustafa Babanlı Təhsil nazirinin müavini İdris İsayevə məzmunlu çıxışına görə təşəkkürünü bildirib. Tədbirə qatıldıqları üçün dövlət qurumlarının və özəl şirkətlərin nümayəndələrinə minnətdarlığını bildirən rektor son illər ərzində Təhsil nazirliyinin dəstəyi ilə ADNSU-da tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində görülən işlərin sayəsində əmək bazarında universitetin məzunlarına tələbin xeyli artdığını vurğulayıb. Hazırda bütün ixtisaslar üzrə təhsil proqramlarının yenidən hazırlanması prosesinin başa çatmaq üzrə olduğunu qeyd edən rektor M.Babanlı artıq ixtisasların siyahısının Nazirlər Kabineti tərəfindən təsdiqləndiyini söyləyib. "Bu gün texniki-texnoloji ixtisasların sayı bütün dünyada olduğu kimi yığcamlaşdırılır, sinifləniir və bu baza əsasında mövcud 40 ixtisas bütün əmək bazarının tələblərini ödəmək iqtidarındadır. Bu prosesdə Təhsil nazirliyinin dəstəyini xüsusi qeyd etmək istəyirəm ki, bu çətin və mürəkkəb prosesi mümkün edir. İstənilən tədris proqramının böyük bir hissəsi kompetensiyalarla bağlıdır. Biz mütəxəssis hazırlayarkən kompetensiyaları işəgötürənlərlə razılaşdırmalı, və həmin kompetensiyaların hans fənlər üzərindən verilməsini müəyyənləşdirməliyik. Proses artıq tam yekunlaşmaq üzrədir və yeni tədris ilinə yeni tədris proqramları ilə başlayacağıq", - deyə rektor M.Babanlı vurğulayıb. Koronavirus pandemiyası ilə əlaqədar ADNSU-da ənənəvi Məzun-Karyera sərgisinin bu dəfə onlayn formatda keçirilməsinə baxmayaraq tədbirə istər dövlət qurumları, istərsə də özəl şirkətlər tərəfindən böyük maraq olduğunu qeyd edən professor M.Babanlı bu platformanın tələbə və məzunların birbaşa şirkət nümayəndələri ilə təmas qurmasında və işlə təmin olunmasında mühün rol oynadığını vurğulayıb. Ötən illər ərzində ADNSU-nun dövlət təşkilatları, sənaye müəssisələri, özəl şirkətlərlə əlaqələrinin genişləndiyini, universitetin tələbələrinin istehsalat təcrübəsi keçməsi, təlim və treninqlərin təşkili və Məzun-Karyera sərgilərində iştirakla bağlı 200-dən artıq qurumla sıx əməkdaşlıq etdiyini söyləyən rektor M.Babanlı bu prosesin hazırda da davam etdiyini bildirib.

### Sərgi çərçivəsində Socar-STP ilə əməkdaşlıq müqaviləsi

Sərgilər həmişə yeni əməkdaşlıq əlaqələrinin qurulması üçün əlverişli platforma qismində çıxış edib. ADNSU-nun VIII Məzun-Karyera sərgisi də bu baxımdan istisna hal təşkil etmədi. Tərəflər arasında bir neçə aydır ki, davam edən danışıqların nəticəsi olaraq rektor M.Babanlı və Socar-STP-nin baş icraçı direktoru Fərid Ağayevin imzaladıqları sənəd ADNSU tələbələrinin bu müəssisədə geniş tərkibdə təcrübə, o cümlədən ödənişli təcrübə keçmələrində, eləcə də gələcəkdə işlə təmin olunmalarında mühüm rol oynayacaq. Socar-STP-nin əsas fəaliyyəti qazma ləvazimatları, quyu tamamlanması, quyuiçi əməliyyatlar, fırlanan və təzyiq altında olan avadanlıq, fontan armaturu, APS (Advanced Parts Solution), ağır kranlar üçün texniki xidmət və təmir işlərini həyata keçirməkdən ibarətdir. Ən müasir texniki avadanlıq və cihazlarla təchiz olunmuş müəssisə qısa müddət ərzində istehsalın həcminin artırılmasını hədəfləyir. Bu isə yeni kadrlara təlabatın artacağı deməkdir. Ölkədə tədris aparılan texniki-texnoloji ixtisasdan 23-ü üzrə ADNSU-da tədrisin aparıldığını nəzərə alsaq, məhz universitetin məzunlarının yüksəliş hədəfləyən müəssisə üçün kadr potensialı rolu oynayacağı şübhə doğurmur.

### İş tapmaq üçün bir klik yetər - career.asoiu.edu.az

Sərgidə Azərbaycan Respublikası Energetika Nazirliyinin şöbə müdiri Əsəd İsmayılov, "Azərişıq" ASC-nin Tədris və İnnovasiya Mərkəzinin direktoru Araz Məmmədzadə, "AzerGold" QSC-nin İnsan Resursları üzrə aparıcı mütəxəssisi Valid Əliyev ADNSU ilə uzunmüddətli uğurlu əməkdaşlıq, tələbələrin istehsalat prosesində iştirakı və təmsil etdikləri qurumların kadr potensialında Azİİ məzunlarının ümumi çəkisi barədə məlumatlarından sonra tədbirin kulminasiya nöqtəsi olub. ADNSU-nun tələbə və məzunlarına ayrı-ayrı müəssisə və şirkətlərin təqdim etdikləri vakant iş yeri elanlarını vahid platformada birləşdirən - *career.asoiu.edu.az* saytı təqdim olunub. Mütəmadi olaraq yenilənəcək və daimi əsasda fəaliyyət göstərəcək sayt istifadədə özünün sadəliyi və funksionallığı ilə fərqlənir. Hər bir ADNSU tələbəsi və məzunu arzuladığı müəssisənin iş elanını seçərək özünün CV-sini oraya göndərə bilər. Saytın üstün cəhətlərindən biri də ADNSU-nun tələbə və məzunlarının iş müraciətlərini, tələbənin işə götürülüb-götürülməməsini, götürülməyibsə səbəbini öyrənmək kimi imkanlar təqdim etməsidir.

### #BizBirlikdəgüclüyük!

Sərginin keçirildiyi tarixdən qısa müddət keçməsinə baxmayaraq universitetin tələbə və məzunları tərəfindən saytda yerləşmiş iş elanları üçün 1260 ədəd CV göndərilib və artıq onlarla məzunumuzun işlə təmin olunması barədə məlumat da daxil olub. İyunun 25-də ADNSU-nun rektoru, professor Mustafa Babanlı universitetin rəsmi facebook səhifəsində canlı rejimdə tələbələrə VIII Məzun-Karyera sərgisinin nəticələrini elan edib, "Bakı Abadlıq" MMC, "Azərişıq" ASC kimi qurumların onlarla məzunumuzu işə götürmək barədə qərar verdiyini, digər qurumların isə müsahibələri tamamladıqdan sonra nəticələri açıqlayacağını bildirib. Rektor M.Babanlı koronavirus pandemiyası şəraitində, onlayn formatda keçirilməsinə baxmayaraq, istər Təhsil Nazirliyinin, istərsə də sərgidə iştirak edən digər dövlət və qeyri-dövlət qurumlarının yaxından və fəal iştirakı sayəsində VIII Məzun-Karyera sərgisinin uğurla başa çatdığını bildirib. O, həmçinin fasiləsiz olaraq ADNSU-nun tərəfdaşı olan müəssisələrin iş elanlarının saytda yerləşdiriləcəyini qeyd edərək, tələbə və məzunları saytın aktiv istifadəçiləri olmağa səsləyib. Tələbələrin suallarını cavablandıran rektor M.Babanlı ADNSU-nun nəticəyə köklənmiş ali məktəb olduğu və nəticənin məzunlarımızın işə düzəlmə faizi, şəxsi biznesini və ya startap layihəsini yaratması, eləcə də hansı qisminin elmi fəaliyyətə başlaması kimi göstəricilərlə ölçüldüyünü vurğulayıb. Koronavirus pandemiyası şəraitində tələbələrə özlərini və yaxınlarının sağlamlıqlarının qayğısına qalmalarını, hökumətin tövsiyələrinə əməl etmələrini tövsiyə edən rektor M.Babanlı qeyd edib ki, əgər hamı birlik nümayiş etdirib karantin rejimi qaydalarına əməl edərsə, həyat bir o qədər tez özünün normal axarına dönər.

# "Təhsil və inklüzivlik"

## UNESCO təhsilin monitorinqi üzrə ümumdünya məruzəsini təqdim edib

**Oruc MUSTAFAYEV**

Məktəblər və təhsil sistemləri nə dərəcədə inklüzivdir? Əslində çox deyil. UNESCO-nun 2020-ci il üzrə təqdim etdiyi təhsilin monitorinqi üzrə ümumdünya məruzəsi bu məsələyə işıq salır. Təşkilatın "Təhsil və inklüzivlik" mövzusuna həsr olunmuş məruzəsinə əsasən, dünya ölkələrinin 10 faizindən azı təhsilin tam inklüzivliyinin təmin olunmasına kömək edən qanunlara malikdir.

Məruzədə bütün dünyada təhsil sistemlərində şagirdlərin təcrid olunmasına gətirib çıxaran əsas amillərin, o cümlədən onların mənşəyi, özünəməxsusluğu və qabiliyyətlərinin (yəni cins, yaş, yaşayış yeri, yoxsulluq səviyyəsi, əlillik, etnik mənsubiyyət, dil, din, miqrant və ya məcburi köçkün statusu, gender identikliyinin ifadəsi və s) dərin təhlili verilir. Hesabat COVID-19 pandemiyası zamanı təcridin gücləndirilməsini müəyyən edir, aşağı və orta gəlirli ölkələrin, təxminən 40% - nin məktəblərin müvəqqəti bağlanması zamanı aztəminatlı ailələrdən olan şagirdləri dəstəkləmədiklərinə dair məlumatları təqdim edir.

Təhsilin monitorinqi üzrə ümumdünya məruzəsi ölkələri diqqəti daha davamlı və bərabərhüquqlu cəmiyyətlərin yaradılmasına yardım üçün məktəblərin açılmasından sonra kənarda qalanlara yönəltməyə çağırır.

UNESCO-nun baş direktoru Odre Azule bildirib ki, indiki dövrün vəzifələrini həll etmək üçün daha artıq şəkildə inklüziv təhsilə keçmək lazımdır. "COVID-19 pandemiyasından sonra gələcək təhsilin yenidən nəzərdən keçirilməsi daha çox əhəmiyyət kəsb edir. Məhz pandemiya bərabərsizliyi daha da ağırlaşdırdı və ona diqqət çəkdi. Fəaliyyətsizlik cəmiyyətlərin tərəqqisinə mane olacaq", - deyə O.Azule əlavə edib.

Təhsilin monitorinqi üzrə ümumdünya məruzəsinin direktoru Manoş Antoninis bildirib ki, COVID -19 pandemiyası təhsil sistemlərimizə yenidən baxmaq üçün bizə real imkan yaratdı. "Lakin müxtəlifliyi qiymətləndirən və alqışlayan bir dünyaya keçid bir gecədə baş verməyəcək. Bir dam altında bütün uşaqların təhsili və tələbələrin ən yaxşı öyrəndikləri şəraitin yaradılması arasında aydın bir gərginlik var. Lakin pandemiya bizə birlikdə işləyərkən fərqli şəkildə hərəkət edə biləcəyimizi göstərdi", - deyə M.Antoninis vurğulayıb.

Monitorinq gedişində müəyyən olunub ki, inteqrasiya üçün maneələrdən biri valideynlərin ayrı-seçkilik baxışlarıdır: Almaniyada valideynlərin təxminən 15%-i, Honkonq və Çində isə 59%-i əlilliyi olan uşaqların digər uşaqların təhsilinə mane olacağından qorxurlar. Həssas uşaqların valideynləri də övladlarını onların rifahını təmin edən və ehtiyaclarına cavab verən məktəblərə göndərmək istəyirlər. Avstraliyada şagirdlərin 37%-i adi məktəbləri dəyişərək ixtisaslaşdırılmış təhsil müəssisələrinə keçib.

Məruzə göstərir ki, təhsil sistemləri şagirdlərin xüsusi tələbatlarını tez-tez nəzərə almır. Yalnız 41 ölkə rəsmi jest dilini tanıyır və bütün dünyada məktəblər internetə çıxış əldə etməkdə daha maraqlıdır.

Məruzədə qeyd olunur ki, aşağı və orta gəlirli ölkələrin demək olar ki, yarısı məhdud imkanlı uşaqların təhsili haqqında kifayət qədər məlumat toplamır. Ev təsərrüfatlarının sorğuları fərdi xüsusiyyətlərə görə təhsil məlumatlarının əldə olunması üçün başlıca əhəmiyyət kəsb edir. Lakin dünya əhalisinin 13%-nin yaşadığı ölkələrin 41% - i bu cür sorğu keçirməyib və ya əldə etdikləri məlumatları dərc etməyib. Təlim məlumatları əsasən, məktəblərdən alınır və məktəbə getməyənləri nəzərə almır.

"Məlumatların çatışmazlığı bizə vəziyyətin tam mənzərəsini əldə etməyə imkan vermir", - deyə M.Antoninis bildirib: "Təəccüblü deyil ki, COVID-19 pandemiyası zamanı birdən-birə özünü göstərən qeyri-bərabərlik bizi çaş-baş qoydu".

Sənəddə qeyd olunur ki, bir çox ölkələr inklüzivliyə keçid üçün müsbət, innovativ yanaşmalardan istifadə edirlər. Hesabata "hər şey həqiqətən hər şeydir" adlı rəqəmsal kampaniya üçün materiallar daxil edilib ki, burada növbəti on il üçün bir sıra əsas tövsiyələr təklif olunur.

---

**K**oronavirus pandemiyası (COVID-19) dünyanı vahimədə saxlamaqda davam edir. Pandemiya insanları yalnız sağlamlıqları ilə təhdid etmir, həm də iqtisadi, mədəni, sosial sahələrə zərbə vurur. Hətta inkişaf etmiş ölkələri belə maddi və mənəvi sıxıntı ilə üz-üzə qoyur, yeni yaşam tərzlərinin formalaşmasına səbəb olur. Bütün ölkələr bu vəziyyətdən daha az itki ilə çıxmaq üçün xüsusi strategiyalar işləyib hazırlayır. Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən dəfələrlə vurğulandı və beynəlxalq aləmdə də qəbul olundu ki, Azərbaycan pandemiya dövründə ən uğurlu strategiya irəli sürən dövlətlərdən biri oldu. Dövlətin pandemiya dövründə həyata keçirdiyi qabaqlayıcı tədbirlər və eləcə də postpandemiya dövrü üçün nəzərdə tutulmuş proqramlar dünya mətbuatında təqdir olunur.




# Qarşıya qoyulan məqsəd və hədəflərə doğru

## ADPU-nun Şamaxı filialı pandemiya dövründə

**Tünzalə YUSİFOVA,**
*ADPU-nun Şamaxı filialının direktoru*

Koronavirus pandemiyası dövründə ölkəmizdə sosial sahədə görülən işlər prioritet təşkil edir. Bu sahədə genişmiqyaslı işlər aparılır, müxtəlif qabaqlayıcı addımlar atılır. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə koronavirus (COVID-19) pandemiyasına qarşı genişmiqyaslı tədbirlər görülür, məşğulluğa və sosial rifaha dəstək məqsədilə fəal siyasət aparılır. Görülən bütün tədbirlər Prezident İlham Əliyevin "Azərbaycanda həyata keçirilən siyasətin mərkəzində vətəndaş dayanır", fikrinin bariz təzahürü kimi dəyərləndirilmelidir.

Ümummilli lider Heydər Əliyevin "Təhsil millətin gələcəyidir" müdrik kəlamına sadiq qalan ölkə rəhbəri İlham Əliyev bu sahəyə xüsusi diqqət ayırdı. Təhsilin fasiləsizliyinin təmin edilməsi məqsədilə bir çox tədbirlər həyata keçirildi.

Təhsil Nazirliyinin "Evdə qal, təhsildən qalma!" çağırışına bütün ali təhsil müəssisələri kimi Azərbaycan Dövlət Pedaqoji Universiteti, o cümlədən ADPU-nun Şamaxı filialı da tam qüvvəsi ilə qoşuldu.

Qısa müddət ərzində yüksək peşəkarlığa malik müəllimlərdən ibarət heyət məsafədən təhsilin şərtlərinə uyğun təlimatlandırıldı, texniki təchizat məsələləri həll edildi. Bütün ixtisaslar və fənlər üzrə tədrisin qaldığı yerdən online rejimdə davam etdirilməsinə başlanıldı.

Qeyd edək ki, filialda bir fakültə - Pedaqoji fakültə, 3 kafedra - Pedaqoji və təbiət fənləri, İctimai və xüsusi fənlər kafedrası və Ədəbiyyat və dillər kafedrası fəaliyyət göstərir. Kafedralar, eləcə də digər strukturlara məxsus otaqlar sürətli internetə qoşulmuş texniki avadanlıqlarla təchiz olunub.

Filialın qarşısında qoyulan əsas məqsəd ölkənin və regionun sosial-iqtisadi inkişafının tələblərinə uyğun müasir çağırışlara cavab verən bilik və bacarığa malik mütəxəssislər yetişdirmək və ADPU-nun Şamaxı filialını təhsil-tədqiqat-innovasiya mərkəzinə çevirməkdir. Filialda dövlət təhsil standartlarının tələblərinə əsasən bakalavr təhsil pilləsində "İbtidai sinif müəllimliyi", "Tarix və coğrafiya müəllimliyi", "Riyaziyyat və informatika müəllimliyi" "Azərbaycan dili və ədəbiyyat müəllimliyi" və "Məktəbəqədər təlim və tərbiyə" ixtisasları üzrə kadr hazırlığı həyata keçirilir.

Filialın maddi-texniki bazası gündəngünə gücləndirilir (İKT-nin multimedia və internet imkanlarının zənginləşdirilməsi və onlardan səmərəli istifadənin təşkili), elektron dərslik, dərs vəsaitlərinin hazırlanması həyata keçirilir, təcrübə mübadiləsinin və qabaqcıl təcrübənin yayılması məqsədilə kafedralar tərəfindən "açıq dərs"lər və onların müzakirəsi təşkil edilir, filial əməkdaşlarının müxtəlif təlim kurslarında və seminarlarda iştirakı təmin olunur. Tədrisin keyfiyyətini daha da artırmaq məqsədilə ixtisaslara uyğun olaraq tarix, coğrafiya, riyaziyyat, informatika, ədəbiyyat kimi müxtəlif fənn kabinetlərindən istifadə olunur. Mövcud 24 auditoriyanın 5-i kompüterlə tamamilə təchiz olunmuş, 4-ü elektron lövhəli, 6-sı isə proyektorlu otaqlardır. Auditoriyalardan 14-ü sürətli internetlə təchiz olunmuşdur. Bundan başqa filialda Azərbaycan Təhsil İnformasiya Sisteminin fəaliyyəti üçün də sürətli internetlə təchiz olunmuş otaq fəaliyyət göstərir.

Hazırda filialda 37 müəllim, o cümlədən 3 dosent, 8 fəlsəfə doktoru, 4 baş müəllim, 22 siravi müəllim fəaliyyət göstərir. Həmçinin ölkənin nüfuzlu ali təhsil müəssisələrindən yüksək elmi potensiala malik 14 müəllim (1 professor, 12 dosent, 1 fəlsəfə doktoru) dəvət olunmuşdur.

Pandemiya dövründə 518 nəfərdən ibarət tələbə kontingentinə daxil olan və respublikanın əksər bölgələrindən olan 400-dən artıq tələbə (buraxılış qrupları istisna olmaqla) elektron formada mühazirə materialları ilə təmin edildi. Zamanla yaranan bütün çətinliklər aradan qaldırıldı və daha geniş təlim imkanları yaradıldı. Təhsil Nazirliyinin təqdim etdiyi "Microsoft Teams" platformasından ödənişsiz formada istifadə olundu.

Respublikanın ucqar kəndlərində yaşayan tələbələrin dərslərə qoşulmasında bəzi problemlər yaranmasını nəzərə alaraq, həmin tələbələrlə zəng və ya elektron poçt vasitəsilə əlaqə saxlanıldı. Ümumilikdə, 350 tələbə mütəmadi online dərslərdə iştirak etdi.

Əminliklə qeyd etmək olar ki, ADPU-nun Şamaxı filialının əməkdaşları online təhsil prosesində dünyanın qabaqcıl ölkələrinin təcrübəsini tədqiq etməklə səmərəli olan bütün yanaşmaları qəbul etməkdədir. Filialın kollektivi yaranan vəziyyətin öhdəsindən uğurla gəlir və tələbələrin təhsildən geri qalmamaları üçün əllərindən gələni edir.

Bütün ixtisaslar üzrə fənlərin tədrisi 31 may 2020-ci il tarixinə qədər başa çatdırılıb.

Hazırda ADPU-nun Şamaxı Filialında Universitetin 2019/2020-ci tədris ilinin yaz semestri yekunlaşdırılaraq təhsil proqramları üzrə nəzərdə tutulan təcrübələrin, semestr imtahanlarının, Buraxılış Yekun Dövlət Attestasiyasının formatı və qaydalarına uyğun olaraq yaz semestrinin imtahan sessiyası obyektiv və şəffaf qaydada həyata keçirilir.

Pandemiya dövründə Filialın Elmi Şurasının iclasları, kafedraların iclasları online şəkildə təşkil edilir.

Qeyd edək ki, 2018-ci ildən Regional İnkişaf İctimai Birliyi tərəfindən həyata keçirilən "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi çərçivəsində filialda fəaliyyət göstərən İnklüziv təhsil üzrə resurs mərkəzi də pandemiya dövründə fəaliyyətini davam etdirir. Bu dövrdə mərkəz tərəfindən onlayn formada keçirilən təlimlərdən 100 müəllim, vebinarlardan isə 50 valideyn keçmişdir.

Həmçinin, tədrislə yanaşı mədəni kütləvi tədbirlərin də online qaydada həyata keçirilməsi prosesi uğurla baş tutur.

Bununla yanaşı filialın ictimai təşkilatları tərəfindən mütəmadi maarifləndirmə tədbirləri həyata keçirilmişdir. "Evdə qal, təhsildən qalma", "Həkimlərə dəstək" adlı videoçarxlar hazırlanaraq sosial şəbəkələrdə paylaşılıb.

Tarixi günlərin qeyd olunması da diqqət mərkəzində saxlanılmışdır. Belə ki, ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü ilə bağlı "Bir millətin xilaskarı" adlı videoçarxın hazırlanması və elmi-praktik konfransın, 28 may Respublika Gününə və Milli Qurtuluş Gününə həsr olunmuş online konfransın keçirilməsi və videoçarxın hazırlanması təqdirəlayiq hal olaraq qeyd olunmalıdır.

ADPU-nun Şamaxı filialının tələbələri könüllülük fəaliyyətinə də fəal şəkildə qoşulmuşdur. Belə ki, Regional İnkişaf İctimai Birliyi ilə əməkdaşlıq şəraitində "bizbirlikdəgücluyük.az" portalına və 150 Çağrı mərkəzinə daxil olan müraciətlər əsasında aztəminatlı ailələrə, yaşı 65-dən yuxarı olan vətəndaşlara dəstək göstərilməsi istiqamətində işlərdə könüllü kimi fəal iştirak ediblər. Həmçinin Azərbaycan Respublikası Könüllülərin Əlaqələndirmə Mərkəzi və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının "Mehriban qonşu" layihəsinə qoşulublar.

Həm filial əməkdaşları, həm də tələbələri online maarifləndirmə tədbirlərinin təşkilatçısı və iştirakçısı qismində çıxış etmişdir. Filial TGT-si "Gəncsən başla!" portalı ilə əməkdaşlıq edərək təlimçi Nihad Quliyevin, filialın 100-ə yaxın tələbəsinin iştirakı ilə "Müsahibələrdən necə keçək", "Development Pover" təşkilatı ilə birgə "İnklüziv cəmiyyətə gedən yol inklüziv təhsildən keçir" və "Bərabərliyə çağırış" mövzularında vebinarların təşkilatçısı, eyni zamanda ATGTİ-nin təşkil etdiyi təlimlərin iştirakçısı olmuşdur. Filialın ictimai təşkilatlarının ənənəvi iclasları da online şəkildə təşkil olunur. Eyni zamanda online intellektual yarışlar da təşkil edilmişdir.

Bu müddət ərzində müsabiqələrə də qatılaraq ADPU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə keçirilən mahnı müsabiqəsində birinci tədris ili tələbəsi Aytac Quliyeva I yerə, Şamaxı rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş bədii qiraət müsabiqəsində IV tədris ili tələbəsi Günay Məmişova I yerə layiq görülmüşlər.

Təqdirəlayiq haldır ki, sosial baxımdan həssas ailələrin üzvü olan tələbələr də diqqət mərkəzində saxlanılır. 13 aprel 2020-ci ildə verilən qərara əsasən filialın xeyli tələbəsi təhsil haqqı xərclərinin dövlət büdcəsi hesabına ödənilməsi güzəştindən istifadə edəcək.

Ölkə Prezidentinin "Biz birlikdə güclüyük" çağırışına qoşularaq ADPU-nun Şamaxı filialının kollektivi tərəfindən ölkədə elan olunmuş xüsusi karantin rejimində aztəminatlı ailələrə, yaşı 65-dən yuxarı tənha yaşayan şəxslərə, əlilliyi olan uşaqlı ailələrə, şəhid ailəsi üzvlərinə və digər həssas kateqoriyadan olan insanlara dəstək məqsədilə sosial aksiya keçirilmişdir.

Aydındır ki, pandemiya insanların həyatına, davranışına, psixologiyasına da müəyyən qədər təsir etmişdir. Doğrudan da, belə bir situasiyada təhsil sisteminə diqqətin artırılması və pedaqoji fəaliyyətin gücləndirilməsi ən ümdə məsələlərdəndir. Tədris prosesinin gündən-günə yeni məzmunda qurulduğu ADPU-nun Şamaxı filialı qarşısına qoyduğu təhsil və tərbiyə məqsədlərinin öhdəsindən gəlir və bu istiqamətlərdə işlər davam etdirilir.

# Ali təhsil müəssisələrinin brendlənməsinə yanaşma

Uzun müddət Qərbdə məhsul və xidmətlərin fərqləndirilməsi üçün istifadə olunan brendləmə konsepti son illərdə ölkəmizdə də yeni mərhələyə qədəm qoyub. Bu proses həm brendlərin tətbiq olunması sferası, həm də yeni brend növlərinin meydana gəlməsi ilə xarakterizə olunur. Belə ki, respublikamızda ənənəvi xidmət və məhsul brendlərindən fərqli olaraq artıq ölkə, şəhər, yer və hətta universitet brendlənməsi anlayışları yaranıb və tətbiq olunur.

Ali təhsil sektorunda universitetlər arasında həm milli, həm də qlobal səviyyədə güclü rəqabət mövcuddur və bu, zaman keçdikcə daha da kəskinləşməkdədir. Bu rəqabətdə qazananlar özlərini digərlərindən daha pozitiv mənada fərqləndirənlər olur. Universitetlərin birinin digərindən fərqləndirilməsinin əsas yolu öz kimliklərinin yaradılması və bu kimliyin maraqlı tərəflərə düzgün çatdırılmasından ibarətdir. Universitetin kimliyi dedikdə, onun brend kimliyi nəzərdə tutulur. Tanınmış brend, yaxşı reputasiya və başa düşülə bilən məlumatların əlçatan olması həmin universitetlərə digərlərindən fərqli olaraq daha çox tələbə, daha çox seçilən müəllim və tədqiqatçıların cəlb olunmasına səbəb olur. Bu da öz növbəsində respublikamızda təhsilin keyfiyyətinin artırılmasına, elmi infrastrukturumuzun və tədqiqat bazamızın daha güclü inkişafına təsir göstərir.



**Turan SÜLEYMANOV,**
*UNEC-in Strateji inkişaf şöbəsinin müdiri*
*e-mail: turan.suleymanov@unec.edu.az*

Brendlər insan həyatının, demək olar ki, bütün sferasını əhatə etməklə yanaşı, insanların dünyaya baxışının formalaşmasında önəmli rollardan birini oynayır. Müxtəlif brend növlərindən istifadə edilir. Bunların arasında ən çox yayılanları məhsul, xidmət və korporativ brendlənmədir. Ali təhsil müəssisələrində daha çox korporativ brendlənmə tətbiq olunur. 1990-cı illərdə bəzi brendlənmə və kommunikasiya konsultantları tərəfindən istifadə olunan bu brend konsepti sonralar bir sıra tədqiqatçıların diqqətini cəlb edib və populyarlaşıb.

Ali təhsil ocaqlarında korporativ brendləmə prosesi çox çətin, eyni zamanda mürəkkəb bir prosesdir. Çünki təhsil xüsusi bir xidmət sahəsidir və bu xidmətin istehlakçıları biznes sektorundakı kimi adi müştərilər deyil. Məhsul və xidmət brendlənməsi ilə müqayisədə universitet brendlənməsi özünəməxsus biznes mühitində baş verir, fərqli, həm də çeşidli maraqlı tərəflərin istək və ehtiyaclarının ödənilməsinə yönəldilir.

Hatch və Schultz qeyd edir ki, korporativ brendləmənin əsasını maraqlı tərəflərin qəbul etdiyi strateji vizyon, təşkilati mədəniyyət və korporativ imicin qarşılıqlı əlaqəsi tutur. Korporativ brendin qeyd olunan bu 3 əsas elementi və onların inteqrasiyası korporativ brendin uğurunu müəyyən edir. Brend vizyonu universitetin hansı istiqamətdə getmək istədiyini və hansı brend hədəfləri olmasını göstərən əsas ideyadır. Brend ədəbiyyatında mədəniyyət dedikdə, təşkilati mədəniyyət nəzərdə tutulur. Təşkilati mədəniyyət müəssisəni diqqətdə saxlayan ideologiya olub, sosial bir formalaşmadır. Hər hansı bir müəssisənin təşkilati mədəniyyəti üç yerə bölünür. Bunlara eksponatlar, dəstəklənən dəyərlər və əsas ehtimallar daxildir. Brendləmə zamanı müəssisənin maraqlı tərəflərdə yaratdığı imic, korporativ imic kimi başa düşülür. Güclü inam yaratmaq üçün maraqlı tərəflərə kömək edən korporativ brend dəyərləri müəssisənin təşkilati mədəniyyəti ilə əlaqəli olmalıdır. Korporativ brend imici strateji düşünmə prosesində və qarşısındakının nə olduğunu dərk etməkdə maraqlı tərəflərə köməklik göstərir.

Universitetin bir brend altında korporativ səviyyədə brendlənməsi və bu brendin maraqlı tərəflərə çatdırılması zamanı ayrı-ayrı proqram və xidmətlər deyil, universitetin korporativ brend kimliyi əsas götürülür. Brend korporativ brend qurulması prosesində ən önəmli yeri tutur. Aakerə görə brend kimliyinin təqdim etdiyi istiqamət, məqsəd və məna brendin təbiətinin özəyini təşkil edir. O bildirir ki, brend kimliyi beş komponentdən ibarətdir. Bunlara əsas dəyərlər, genişləndirilmiş dəyərlər, brend assosiasiyaları, funksional və emosional mənfəətlər daxildir. Ona görə "əsas kimlik" brend kimliyinin ən önəmli aspekti olub onun mərkəzi və qiymətsiz bir parçasıdır. Təşkilati mədəniyyətin əsas dəyərlər sistemi brendin fundamental inanclar və dəyərlər sistemini təqdim edir. Brendin genişləndirilmiş kimliyi isə çevikliliyi artıraraq strukturlaşdırır və brendi tamamlayır. Bir sıra iqtisadi ədəbiyyatlarda brend assosiasiyaları məhsul, təşkilati, şəxsi və simvollar olaraq qruplara bölünür.

Ali təhsil müəssisələrinin korporativ brendlənməsi zamanı fəaliyyət təkcə marketinq şöbəsi ilə məhdudlaşmır, uğurlu nəticə əldə etmək üçün proses universitetin rektorunun rəhbərliyi altında ali təhsil ocağının müvafiq resurslarının və departmentlərinin cəlb olunması ilə inteqrasiya olunmuş strategiya əsasında həyata keçirilir. Universitetlərin korporativ brendlənməsi zamanı əsas maraqlı tərəflərə tələbələr, akademik və inzibati işçilər, gələcək tələbələr, şirkətlər, işəgötürənlər, məzunlar, media, donorlar və ictimaiyyət daxildir. Eyni zamanda ali təhsil müəssisələrinin korporativ brendlənməsi zamanı müxtəlif tərəflərin maraqlarının və oynadıqları rolun aydın başa düşülməsi çox önəmli məsələlərdən biridir. Ali təhsil müəssisələrində maraqlı tərəflərin ən önəmlisi müəllimlər və tələbələrdən ibarətdir. Buradakı korporativ brendin uğuru həmin ali təhsil ocağının müəllim və tələbələrinin günlük həyatında onların öz universitetlərinin brendini anlaması və onu dəstəkləməsindən çox asılıdır. Son zamanlar sosial media vasitələrindən geniş istifadə olunması bu prosesin önəmini daha da artırmışdır. Digər önəmli, maraqlı tərəf isə məzunlar sayılır. Brendləmə prosesi keyfiyyətlə sıx bağlıdır. Xüsusilə universitetlərdəki keyfiyyətli təhsil məzun üçün daha yaxşı iş imkanı deməkdir (Natale və Doran, 2012). Bu ideya da ali təhsil müəssisələrində brend konseptini daha bir dəyərli komponent olan məzunlarla əlaqələndirir. Ona görə də ali təhsil müəssisələrində brendləmə prosesində məzunlarla iş önəm kəsb edir. Belə ki, məzunlar ali təhsil müəssisəsinin bir növ vizitkası olmaqla yanaşı, eyni zamanda onlar təklif olunan təhsil proqramlarının məzmununun zənginləşdirilməsində və aktuallığının qorunmasında əvəzsiz xidmət göstərmək imkanına malikdirlər (Valtere, 2012). Məzunların universitetdə əldə etdikləri bilik və təcrübəni əsas götürərək deyə bilərik ki, onların cəmiyyətdə və öz ətrafında universitetin brend səfir rolunu oynamaq imkanı da var. Universitetin son məhsulu kimi onlar insanlar tərəfindən qəbul olunur və sözsüz ki, həyatlarındakı uğurların bir qismi universitetin adı ilə bağlanır. Digər önəmli maraqlı tərəf isə gələcək tələbələrdir. Universitetlərin korporativ brendlənməsi zamanı akademik və inzibati işçilər danılmaz bir rola sahibdir və onlar qərarların verilməsində önəmli rol oynayır. Universitetin işinin koordinasiyası və səmərəliliyi onun inzibati işçilərindən asılı olur. İctimai rəy universitetlərin cəmiyyətdəki imicini əks etdirməklə yanaşı, brendləmə prosesinin uğurlarının ölçü meyarı kimi də istifadə oluna bilir. Universitetlərin korporativ brendinin digər tələbələrə və digər xarici maraqlı tərəflərə çatdırılması həmin təhsil müəssisəsinin işçilərinin öz universitetinin korporativ dəyərlər sistemini və korporativ kimliyini nə qədər başa düşməsindən və onların 3-cü tərəflə kommunikasiyasından asılıdır. Bu işdə maraqlı tərəf kimi dövlətin də böyük rolu mövcuddur. Dövlət universitetlərin fəaliyyət göstərməsi üçün hüquqi baza və standartlar yaratmaqla yanaşı, bəzi ölkələrdə onların maliyyələşməsində önəmli rol oynayır. Müəssisələr isə məzunları işə götürməklə yanaşı, dünya təcrübəsinə əsasən universitetin layihələrinin maliyyələşməsində də önəmli rol oynayır.

Ali təhsil müəssisələrini digər brend növlərindən fərqləndirən cəhətlərdən biri də onların əsas müştərisi olan tələbələrə yanaşma tərzindən ibarətdir. Biznes prinsiplərinin ali təhsil müəssisələrində tətbiqi ali təhsil sektorunun mühitinin dəyişməsinə gətirib çıxarmışdır. Təhsil sektorunda tələbələrə (və gələcək tələbələrə) ali təhsil müəssisələrinin müştərisi kimi yanaşılması bir həqiqətdir. Bunun da əsas səbəbi ali təhsil müəssisələrinin məhsulu kimi təklif olunan təhsil proqramlarının müştərilərinin tələbələr olması ilə əlaqələndirilir (Natale və Doran, 2012). Tələbələrə sadəcə müştəri kimi də yanaşmaq doğru deyil. Səbəblərdən birincisi bu sektorun təklif etdiyi xidmətlə əlaqədardır. İkincisi isə əgər tələbələrə biznes prinsipləri əsas götürərək sadəcə müştəri kimi yanaşılsaydı, o zaman gərək təhsil proqramları və kollovumlar tələbələrin, yəni əsas müştərilərin tövsiyəsi və rəyləri əsasında hazırlanmalı idi. Digər tərəfdən, tələbələr universitetlərin akademik həyatının partnyoru kimi də qəbul olunur, hansı ki, onların dəstəyi ilə universitetlər inkişaf edir. Belə bir yanaşma Bolonya prosesində də qeyd edilməkdədir. Ümumilikdə isə ali təhsil müəssisələrinin korporativ brendi qurulan zaman əsas hədəf qrupu olan tələbələrə həm müştəri, həm də universitetin akademik partnyoru kimi baxılır və onlara brendləmə prosesinin iştirakçısı kimi yanaşılır.

Brend vizyonu universitetin hansı istiqamətdə getmək istədiyini və hansı brend hədəfləri olmasını göstərən əsas ideyadır

Ən son olaraq ali təhsil müəssisələrinin korporativ brend konseptini digər brend konseptlərindən fərqləndirən əsas aspektlərdən biri də brendləmənin məqsədi ilə əlaqədardır. Ənənəvi məhsul və xidmət brendlənməsində əsas məqsəd brend olunan məhsul və ya xidmətin bazardakı digər məhsul və xidmətlərdən fərqləndirilməsindən ibarət olduğu halda, ali təhsil müəssisələrinin korporativ brendlənməsi həm də universitetə güclü bağlılıq və sahiblənmə hisslərini də qarşısına hədəf qoyur. Belə ki, bu proses zamanı universitetin işçiləri, tələbələri və hətta məzunları arasında həmin müəssisənin korporativ brendinə və dəyərlər sisteminə bağlılıq hissi yaranır. Çünki universitetin korporativ brendini öz şəxsi kimliyinin bir hissəsi kimi görən tələbələr məzun olduqdan sonra da universitetlə əlaqələrini kəsmir və dəstək göstərirlər. Belə məzunlar və dəyərlər sistemini öz fəaliyyətində tətbiq edən işçilər cəmiyyətdə və digər xarici maraqlı tərəflər arasında güclü brend imicinin yaranmasına, müsbət ictmai rəyin formalaşmasına köməklik göstərirlər. Bir sözlə, ali təhsil müəssisələrində korporativ brendləmə prosesi daxildən başlayır. Ali təhsil müəssisələri işçilərinin brend kimliyini və onu təşkil edən dəyər və assosiasiyaları başa düşmələri, fəaliyyətləri zamanı bunlara əməl etmələri brendlənmə uğurunu müəyyən edən amillərdən biridir. Ona görə də universitetlərdə brend kimliyinin bütün elementləri xüsusi diqqətlə hazırlanmalı və işçilərə kommunikasiya olunmalıdır.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6194, **Sifariş** 1636

**Məsul növbətçi:** O.Mustafayev


## Etibarsız sayılır

**Bakı şəhər** 129 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Qarayeva Lalə Fikrət qızına verilmiş B-258283 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2016-cı ildə İmanova Zeynəb Azadxan qızına verilmiş A-104085 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Qullar kənd 1 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Osmanov Nadir Aydın oğluna verilmiş 9 nömrəli tam orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2000-ci ildə Lətifova Elnurə Şakir qızına verilmiş A-060282 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Naftalan şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 1998-ci ildə bitirmiş Seyidi Bəturə Davud qızına verilmiş B-315043 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Məhəmməd Füzuli adına şəhər tam orta məktəbini 2009-cu ildə bitirmiş Cəlilova Bəsti Həsrət qızına verilmiş B-612983 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qobustan rayon** Sədəf kənd tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Ağababayev Firudin Fazil oğluna verilmiş A-861245 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 217 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş İsmayılov İntiqam Habil oğluna verilmiş A-502525 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan şəhər** 1 nömrəli məktəb-liseyi 2015-ci ildə bitirmiş Manafov Vüsal Vüqar oğluna verilmiş A-442875 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Gəngər kənd tam orta məktəbi 2012-ci ildə bitirmiş Tağıyev Pərviz İlqar oğluna verilmiş A-166339 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** Mahmudlu-1 kənd tam orta məktəbi 2008-ci ildə bitirmiş İbişova Nərmin Aydın qızına verilmiş A-587105 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 1 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Əhmədova Telli Həbib qızına verilmiş B-158930 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Əlinəzərli kənd 2 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Köçərli Şahmalı Şakir oğluna verilmiş A-142983 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** Yuxarı Ağasıbəyli kənd tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Xudiyeva (Nəzərova) Gülsel Nəsirulla qızına verilmiş A-688374 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2014-cü ildə Məmmədova Güney Vilayət qızına verilmiş A-043564 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu** tərəfindən 1989-cu ildə Rüstəmova Svetlana İsrafilovnaya verilmiş ЛB-024754 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı rayon** Sumağallı kənd tam orta məktəbi 1998-ci ildə bitirmiş Bayramov Ramil İsrayıl oğluna verilmiş A-265250 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayonu** Ş.Əmirov adına Dəllər-Cırdaxan kənd tam orta məktəbini 2000-ci ildə bitirmiş Aslanova Könül Vaqif qızına verilmiş A-434301 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Slavyan Universitetinin rektoru, Həmkarlar İttifaqı Komitəsi və professor-müəllim heyəti Fiologiya və xarici dil müəllimliyi fakültəsinin dekan müavini Sevinc Musayevaya qardaşı

**OKTAY MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Avropa Liseyinin direktoru və pedaqoji kollektivi liseyin təşkilati işlər üzrə direktor müavini Səbinə Bayramovaya həyat yoldaşı

**ƏŞRƏF ARİF OĞLU BAYRAMOVUN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Pandemiya reytinqə necə təsir edib?

## Yeni reytinq universitetlərin tədqiqatçılıq fəaliyyətinin güclənməsini üzə çıxarıb





**Oruc MUSTAFAYEV**

Pandemiya böhranının bütün dünyada ali məktəblərin normal akademik və elmi fəaliyyətini pozmasına baxmayaraq bir sıra universitetlər hazırkı ağır dövrdə də qlobal reytinqlərdə öz mövqelərini yaxşılaşdıra biliblər. Yaxşılaşdırma isə pandemiyanın qarşısının alınması istiqamətində universitetlərin elmi tədqiqatlara daha artıq fokuslanması və bu sahədə töhfə verməsi səyləri ilə bağlıdır. Beləliklə də pandemiya dövrünün ilk qlobal reytinqindən də görünür ki, universitetlərin tədqiqatçılıq fəaliyyəti onlara akademik mühitdə və işəgötürənlər arasında daha üstünlük qazandırıb.

Bu ilin ilk “QS World University Rankings 2021” reytinqi dünyanın 80-dən artıq ölkəsindən ən yaxşı 1000 ali təhsil müəssisəsini əhatə edir. Reytinqdə yer alan ali məktəblərin sayına görə ABŞ üstünlüyə malikdir. Ötənilki reytinqdə 158 universitetlə təmsil olunan ABŞ bu dəfə sıralamada 151 universitetlə yer alıb. Daha sonra Böyük Britaniya 84, Çin 51, Almaniya 45 (ötən il 46), Yaponiya yenidən 41 universitetlə təmsil olunur. Reytinqə Rusiyanın 28 (ötən il 25) ali məktəbi daxil olub.

Bu ilin ən yaxşı 1000 universiteti sırasına 47 yeni ali məktəb ilk dəfə daxil olub. Bütövlükdə isə yeni reytinq 5500-dən çox universiteti qiymətləndirib. Massaçusets Texnologiya İnstitutu (MIT) rekord seriyasını davam etdirib, ali məktəb 9 ildir ki, ardıcıl olaraq sıralamaya başçılıq edir. İlk 10-luqda aşağıdakı universitetlər yer alıb: 1.Massachusetts Institute of Technology (MIT), 2.Stanford University, 3.Harvard University, 4.California Institute of Technology (Caltech), 5.University of Oxford, 6.ETH Zurich - Swiss Federal Institute of Technology, 7.University of Cambridge, 8.Imperial College London, 9.University of Chicago, 10.UCL.

Rusiyanın M.V.Lomonosov adına Moskva Dövlət Universiteti bu il sıralamada ötənillə müqayisədə 8 sıra yüksəlib və 74-cü yerdə qərarlaşıb. MDU-nun rektoru, akademik V.A.Sadovniçi ölkənin aparıcı ali təhsil müəssisəsinin inkişafı ilə bağlı səylərinin yüksək qiymətləndirilməsi münasibətilə universitetin əməkdaşları və tələbələrini təbrik edib. O, QS-in yeni tədqiqatının nəticələrini şərh edərək qeyd edib ki, MDU növbəti dəfə aparıcı beynəlxalq reytinqdə mövqeyini yaxşılaşdırıb və Rusiyanı qlobal elmi-təhsil məkanında layiqincə təmsil edir. Rektor ali məktəbin akademik nüfuzunun möhkəmləndirilməsini xüsusi vurğulayıb və bunu MDU əməkdaşlarının həyata keçirdikləri elmi tədqiqatların ən yüksək səviyyəsi ilə əlaqələndirib.

Bu il reytinqlər bütün dünya üçün çətin bir vaxtda tərtib olunur, COVID-19 həm universitetlərə, həm də tələbələrə təsir göstərir. Bununla belə, ekspertlər qeyd edirlər ki, COVID-19 pandemiyası ilə əlaqədar universitetlərin üzləşdikləri dəyişikliklər izsiz keçməyəcək, ali məktəblərin təşkilati və texniki inkişafına təkan verəcək.

QS universitetlərin səmərəliliyinin qiymətləndirilməsi üçün altı meyardan istifadə edib: akademik mühitdə reputasiya (40%), müəllim-tələbə nisbəti (20%), işəgötürənlər arasında nüfuz (10%), sitat gətirmə indeksi (20%), əcnəbi müəllimlərin və əcnəbi tələbələrin sayı (5%). Meyarlar üzrə qiymətləndirmələr çoxlu sayda məlumatların təhlili əsasında əldə edilib: reytinq tərtibçiləri 13 milyondan çox elmi nəşri təhlil ediblər, 93 milyondan artıq sitatı nəzərə alıb, 240 mindən çox işəgötürən və 1,5 milyon akademik icma nümayəndəsini sorğulayıblar.

Reytinqlə daha ətraflı *www.topuniversities.com/university-rankings/world-university-rankings/2021 səhifəsindən tanış olmaq olar.*

| Reytinq | Ali məktəbin adı | Ölkə |
|---|---|---|
| 1 | Massachusetts Institute of Technology (MIT) | ABŞ |
| 2 | Stanford University | ABŞ |
| 3 | Harvard University | ABŞ |
| 4 | California Institute of Technology (Caltech) | ABŞ |
| 5 | University of Oxford | Böyük Britaniya |
| 6 | ETH Zurich - Swiss Federal Institute of Technology | İsveçrə |
| 7 | University of Cambridge | Böyük Britaniya |
| 8 | Imperial College London | Böyük Britaniya |
| 9 | University of Chicago | ABŞ |
| 10 | UCL (University College London) | Böyük Britaniya |
| 11 | National University of Singapore (NUS) | Sinqapur |
| 12 | Princeton University | ABŞ |
| 13 | Nanyang Technological University, Singapore (NTU) | Sinqapur |
| 14 | EPFL | İsveçrə |
| 15 | Tsinghua University | Çin |
| 16 | University of Pennsylvania | ABŞ |
| 17 | Yale University | ABŞ |
| 18 | Cornell University | ABŞ |
| 19 | Columbia University | ABŞ |
| 20 | The University of Edinburgh | Böyük Britaniya |
| 21 | University of Michigan-Ann Arbor | ABŞ |
| 22 | The University of Hong Kong | Honkonq |
| 23 | Peking University | Çin |
| 24 | The University of Tokyo | Yaponiya |
| =25 | Johns Hopkins University | ABŞ |
| =25 | University of Toronto | Kanada |
| =27 | The Hong Kong University of Science and Technology | Honkonq |
| =27 | The University of Manchester | Böyük Britaniya |
| 29 | Northwestern University | ABŞ |
| 30 | University of California, Berkeley (UCB) | ABŞ |
| =31 | The Australian National UniversityMore | Avstraliya |
| =31 | King's College LondonMore | Böyük Britaniya |
| =31 | McGill UniversityMore | Kanada |
| 34 | Fudan UniversityMore | Çin |
| 35 | New York University (NYU)More | ABŞ |
| 36 | University of California, Los Angeles (UCLA) | ABŞ |
| 37 | Seoul National University | Cənubi Koreya |
| 38 | Kyoto University | Yaponiya |
| 39 | KAIST - Korea Advanced Institute of Science & Technology | Cənubi Koreya |
| 40 | The University of Sydney | Avstraliya |
| 41 | The University of Melbourne | Avstraliya |
| 42 | Duke University | ABŞ |
| 43 | The Chinese University of Hong Kong (CUHK) | Honkonq |
| 44 | The University of New South Wales (UNSW Sydney) | Avstraliya |
| 45 | University of British Columbia | Kanada |
| 46 | The University of Queensland | Avstraliya |
| 47 | Shanghai Jiao Tong University | Çin |
| 48 | City University of Hong Kong | Honkonq |
| 49 | The London School of Economics and Political Science (LSE) | Böyük Britaniya |
| 50 | Technical University of Munich | Almaniya |

| | | |
|---|---|---|
| 51 | Carnegie Mellon University | ABŞ |
| 52 | Université PSL | Fransa |
| 53 | Zhejiang University | Çin |
| 54 | University of California, San Diego (UCSD) | ABŞ |
| 55 | Monash University | Avstraliya |
| 56 | Tokyo Institute of Technology (Tokyo Tech) | Yaponiya |
| 57 | Delft University of Technology | Niderland |
| 58 | University of Bristol | Böyük Britaniya |
| 59 | Universiti Malaya (UM) | Malayziya |
| 60 | Brown University | ABŞ |
| =61 | University of Amsterdam | Niderland |
| =61 | Ecole Polytechnique | Fransa |
| 62 | The University of Warwick | Böyük Britaniya |
| 63 | Ludwig-Maximilians-Universität München | Almaniya |
| 64 | Ruprecht-Karls-Universität Heidelberg | Almaniya |
| 65 | University of Wisconsin-Madison | ABŞ |
| =66 | National Taiwan University (NTU) | Tayvan |
| =66 | Universidad de Buenos Aires (UBA) | Argentina |
| =69 | Korea University | Cənubi Koreya |
| =69 | University of Zurich | İsveçrə |
| 71 | University of Texas at Austin | ABŞ |
| =72 | Osaka University | Yaponiya |
| =72 | University of Washington | ABŞ |
| 74 | Lomonosov Moscow State University | Rusiya |
| 75 | The Hong Kong Polytechnic University | Honkonq |
| 76 | University of Copenhagen | Danimarka |
| =77 | Pohang University of Science And Technology (POSTECH) | Cənubi Koreya |
| =77 | University of Glasgow | Böyük Britaniya |
| 79 | Tohoku University | Yaponiya |
| 80 | Georgia Institute of Technology | ABŞ |
| 81 | The University of Auckland | Yeni Zelandiya |
| 82 | University of Illinois at Urbana-Champaign | ABŞ |
| 83 | Sorbonne University | Fransa |
| 84 | KU Leuven | Belçika |
| 85 | Yonsei University | Cənubi Koreya |
| 86 | Durham University | Böyük Britaniya |
| 87 | University of Birmingham | Böyük Britaniya |
| 88 | Sungkyunkwan University(SKKU) | Cənubi Koreya |
| 89 | Rice University | ABŞ |
| 90 | University of Southampton | Böyük Britaniya |
| 91 | University of Leeds | Böyük Britaniya |
| 92 | The University of Western Australia | Avstraliya |
| =93 | The University of Sheffield | Böyük Britaniya |
| =93 | University of Science and Technology of China | Çin |
| 95 | University of North Carolina, Chapel Hill | ABŞ |
| 96 | University of St Andrews | Böyük Britaniya |
| 97 | Lund University | İsveç |
| 98 | KTH Royal Institute of Technology | İsveç |
| 99 | University of Nottingham | Böyük Britaniya |
| 100 | Universidad Nacional Autónoma de México (UNAM) | Meksika |



